## Apteklərdə civəli termometr tapmaq mümkün deyil



**Ölkəmizdə fəaliyyət göstərən çox sayda aptekdə civəli termometr tapmaq mümkün deyil.**

Bir neçə aptekdən bildiriblər ki, termometrlər ümumiyyətlə gəlmir, gələndə də məhdud sayda gəlir. Əczaçılar deyir ki, bunun səbəbini özləri də bilmirlər.

Məsələ ilə bağlı Trend-ə Səhiyyə Nazirliyindən bildiriblər ki, apteklər özəl müəssisələrdir və onların dərman təminatı özəl müəssisələr tərəfindən həyata keçirilir.

## Azərbaycan əhalisinin sayı artıb

Əksəriyyət şəhərlərdə yaşayır



**Azərbaycanın əhalisinin sayı ilin əvvəlindən 28 247 nəfər və ya 0,3% artıb.**

Dövlət Statistika Komitəsi xəbər verir ki, 2021-ci il oktyabr ayının 1-nə olan məlumata görə, ölkə əhalisinin sayı 10 147 380 nəfərə çatıb.

Azərbaycan əhalisinin 53%-ni şəhər, 47%-ni kənd sakinləri, 49,9%-ni kişilər, 50,1%-ni isə qadınlar təşkil edib.

*Bir kvadrat kilometrə düşən əhalinin sayı 117 nəfər olub.*




№ 208 (5490), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 16 noyabr 2021-ci il (çərşənbə axşamı)


## Təxribatlar əks effekt verdi

Azərbaycan Ordusu əlavə strateji ərazilərdə möhkəmləndi

**Erməni təxribatlarına cavab olaraq Azərbaycan Qafan-Çakaten yolunda sərhəd və gömrük nəzarətinin tətbiqinə başlayıb. Çakaten, Sıxovuş, Kilsəkənd, Tsav, Nerkin Hand və digər kəndlərin əhalisi üçün iki seçim var.**

Ya Azərbaycan ərazisindən gömrük rüsumu ödəyərək keçəcəklər, ya da daha uzun məsafə qət edərək, Mehriyə, oradan Qafana gedəcəklər. Bununla Bakı Paşinyan hakimiyyətini siyasi blokadaya salır. Ermənistan hakimiyyətinin təklif etdiyi alternativ yollar isə olduqca əlverişsizdir. Yollarda qurulan yeni postlarla bağlı xəbəri erməni ictimaiyyətinin narahatlıqla qarşılaması da alternativ yolun əhəmiyyətsiz olduğundan xəbər verir. Qafan meri Gevork Parsyan təəssüf hissi ilə qorxduqlarının başlarına gəldiyini etiraf edib. O, yeni postların ermənilər üçün ciddi problem yaratdığına diqqət çəkib...

(səh.3)



## XİN Paşinyana cavab verdi

Mövcud gərginliyə görə başlıca məsuliyyət bilavasitə Ermənistanın üzərinə düşür

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan Təhlükəsizlik Şurasının iclasında Baş nazir Nikol Paşinyanın söylədiklərini şərh edib.**

L. Abdullayeva bildirib ki, son zamanlar Ermənistan tərəfindən həyata keçirilən təxribatlara cavab olaraq, Azərbaycan tərəfindən müvafiq tədbirlər görülür.

(səh.2)

## Putin Makronla Qarabağdan danışıb

Rusiya Prezidenti deyib ki, üçtərəfli razılaşmalar ardıcıl həyata keçirilməlidir



**Moskva Qarabağda vəziyyətin sabitləşdirməsi üçün addımlar atmağa davam edəcək.**

Trend-in məlumatına görə, bunu Fransa Prezidenti Emmanuel Makron ilə telefon danışığı zamanı Rusiya Prezidenti Vladimir Putin deyib.

V.Putin qeyd edib ki, Rusiya vəziyyətit sabitləşdirilməsinə və Rusiya vasitəçiliyi ilə əldə edilmiş üçtərəfli razılaşmaların ardıcıl şəkildə həyata keçirilməsinə töhfə verəcək addımlar atmağa davam edəcək.

# Ermənistanda siyasi böhran yaşanır

Paşinyan sərhəddəki hadisələrə görə müdafiə nazirini işdən qovdu



**Ermənistanın Müdafiə naziri Arşak Karapetyan vəzifəsindən azad edilib. Bu barədə dünən Ermənistan Prezident Aparatının mətbuat xidməti məlumat yayıb.**

Məlumata əsasən, Ermənistan prezidenti Armen Sarkisyan Baş nazir Nikol Paşinyanın təklifi əsasında Karapetyanı vəzifəsindən çıxarıb.

Onun yerinə isə baş nazirin müavini Suren Papikyan təyin edilib. Paşinyanın müavini olmuş Suren Papikyan 1986-cı ilin aprelin 26-da Ermənistanın Stepanavan şəhərində doğulub. İrəvan Dövlət Universitetinin tarix fakultəsini bitirdikdən sonra 2012-2016-cı illərdə Sankt-Peterburq Dövlət Universitetinin aspiranturasında təhsil alıb. 2018-ci ildə Ermənistanın ərazi-idarəetmə və infrastruktur naziri təyin olunub.

(səh.2)



## NATO Azərbaycanın müdafiə islahatlarını yüksək qiymətləndirib

**Noyabrın 15-də Brüssel şəhərinə işgüzar səfəri çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov NATO-nun mənzil-qərargahında NATO Baş katibinin müavini Mirça Ceoana ilə görüşüb.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb.

Görüşdə NATO-Azərbaycan tərəfdaşlığının aktual məsələləri, gələcək inkişaf perspektivləri, eləcə də regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

(səh.4)

## Ağdam sakini minaya düşərək ölüb

Onun nəşini ərazidən çıxarmaq mümkün olmayıb



Ağdamın işğaldan azad olunan Tağıbəyli kəndi ərazisində minaya düşərək həlak olan Ağayev Zaur İsa oğlunun nəşini ərazidən çıxarmaq mümkün olmayıb.

(səh.4)

# Gərginlik artır

Terrorçu Mirzoyan Azərbaycana təhvil verilməli idi



**Son günlər Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində erməni təxribatlarının intensivləşdiyinin şahidi oluruq.**

Məlum olduğu kimi noyabrın 13-də Şuşa şəhəri yaxınlığında erməni terrorçu Norayr Mirzoyan Azərbaycan və Rusiya hərbçilərinə qarşı təxribata əl atıb. Rəsmi məlumata əsasən, avtomobillə Laçın şəhəri istiqamətində hərəkətdə olan Mirzoyan Daşaltı kəndinin yaxınlığında maşından düşüb və orada xidmət aparan Azərbaycan Silahlı Qüvvələrinin əsgərlərinə doğru əl qumbarası atıb.

(səh.3)



## DSX Ermənistanla sərhədə mediatur təşkil edib

**Dövlət Sərhəd Xidməti (DSX) Ermənistanla sərhədə mediatur təşkil edib.**

APA-nın mediaturda iştirak edən müxbiri xəbər verir ki, media nümayəndələri əvvəlcə Qubadlının Eyvazlı kəndində, Ermənistanla sərhəddə yerləşən yeni yaradılan nəzarət-buraxılış məntəqəsində olublar.

Səfər çərçivəsində, həmçinin Zəngilan rayonunun Ermənistanla sərhəddə yerləşən Qazançı kəndində yeni yaradılan nəzarət-buraxılış məntəqəsinə baş çəkiləcək.

## Daha 1 072 nəfər koronavirusa yoluxub

26 nəfər ölüb, 1 229 nəfər müalicə olunaraq sağalıb



**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına yeni 1 072 yoluxma faktı qeydə alınıb, 1 229 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 26 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 561 925 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 523 660 nəfər müalicə olunaraq sağalıb, 7 471 nəfər vəfat edib, aktiv xəstə sayı 30 794 nəfərdir.

*Ölkədə son sutka ərzində 6 803, hazırkı dövrədək isə 5 367 119 test aparılıb.*

## Avropa İttifaqı Gürcüstanda verilən COVID-19 pasportlarını tanıyıb



**Gürcüstan Avropa İttifaqının (Aİ) COVID-19 Sertifikat Sisteminə qoşulub.**

APA-nın yerli bürosunun xəbərinə görə, bu barədə Gürcüstanın xarici işlər naziri David Zalkaliani "Twitter"də bildirib.

O vurğulayıb ki, bu, pandemiyaya qarşı mübarizədə önəmli addımlardan biridir və Gürcüstan Qərb dəyərlərinə sadiq olaraq qalır.

*Xatırladaq ki, Gürcüstanla yanaşı Moldova, Serbiya və Yeni Zelandiya da adıçəkilən sistemə qəbul edilib.*



## Yerli məhsullar "quş südü"nə dönüb

Əhali uzun müddətdir keyfiyyətsiz GMO kartoflarla qidalanır

(səh.4)



## Videogörüntülərdə hər şey aydın görünür

Son terror aksiyasında Rusiya fiaskoya uğradı

(səh.5)

# Arzularımız çin oldu

## Zəngəzur dəhlizi əsas qapıdır



Türk Dövlətləri Təşkilatı regionda iqtisadi inkişafın və sabitliyin katalizatoru rolunu oynaya bilər

İsmayıl Qocayev

**Noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü dünya ictimaiyyətində diqqətinə səbəb oldu və böyük rezonans yaratdı. Tədbirdə quruma sədrlik Azərbaycandan Türkiyəyə ötürüldü. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordeni təqdim edildi. Dövlət başçısı İlham Əliyev bildirdi ki, Türk Dünyasının Ali Ordeninin sədrliyin Türkiyəyə təhvil verildiyi bir gündə ona verilməsi xüsusilə önəmlidir:**

"Bu, sədr kimi ötən iki ildə sərf etdiyimiz səylərin də eyni zamanda müvəffəqiyyətlə istənilən nəticələrə gətirib çıxardığını təsdiqləmiş olur". Türk Şurasının adı Türk Dövlətləri Təşkilatı olaraq dəyişdirildi və Türkmənistan təşkilata üzv qəbul edildi. Qurumun adının dəyişdirilməsi və Türkmənistanın təşkilata gətirilməsi türk coğrafiyasının genişlənməsinə və strukturun güc mərkəzinə çevrilməsinə səbəb olacaq. Orta Asiyanın türk dövlətləri bu prosesə çox çətin və uzun müzakirələrdən sonra qoşulub. Bu prosesdə Türkiyə qədər Azərbaycanın da xidmətlərini və fədakarlığını danmaq olmaz. 3 oktyabr 2009 tarixində Naxçıvanda təməli qoyulan türk birliyinin indi 6 bərabərhüquqlu və 2 müşahidəçi üzvü var.

**ABŞ-ın Atlantik Şurasının böyük elmi işçisi, beynəlxalq ekspert Metyu Brayza bildirib ki, Türk Dövlətləri Təşkilatı regionda iqtisadi inkişafın və sabitliyin katalizatoru rolunu oynaya bilər.** Onun sözlərinə görə, bu il noyabrın 12-də İstanbulda keçirilmiş zirvə görüşündə Türk Şurasının adı Türk Dövlətləri Təşkilatına dəyişdirildi: "Hesab edirəm ki, bu, üzv və müşahidəçi dövlətlər arasında əməkdaşlığın yeni və daha intensiv mərhələsini əks etdirir. Bu təşkilat Aralıq və Qara dənizdən, Xəzər dənizi və onun hüdudlarından kənaradək uzanan regionda iqtisadi inkişafın və sabitliyin katalizatoru rolunu oynaya bilər". Ekspert Türkmənistanın Türk Dövlətləri Təşkilatına qəbul edilməsini alqışladığını bildirib: "Bu addımın regional əməkdaşlığı daha da möhkəmləndirəcəyini gözləyirəm. Türkmənistan və Azərbaycan artıq logistika sahəsində vacib oyunçular kimi birgə fəaliyyət göstərərək malların Avropadan Mərkəzi Asiyaya və onun hüdudlarından kənara və əksinə, etibarlı daşınmasını təmin edir".

**Politoloq Turab Rzayev "Şərq"ə bildirib ki, regionda yeni iqtisadi-siyasi gücün meydana gələcəyi ehtimalı böyükdür. Analitikin fikrincə, burada əsas ana kanal Türkiyə üzərindən Zəngəzur dəhlizi ilə Azərbaycan və Orta Asiyaya açılan qapıdır:** "Bundan sonra regionun gələcəyi məhz türk dövlətlərinin birliyindən keçir. Xüsusi ilə Azərbaycan və Türkiyə arasında Şuşa Bəyannaməsi ilə təsdiq olunmuş yaxın əməkdaşlıq və müttəfiqliyin nümunəyə çevriləcəyi gözlənilir. Digər türk ölkələrlə də analoji sazişlər bağlanacağı və Yaxın Şərqdən Mərkəzi Asiyaya qədər geniş coğrafiyanı əhatə edən iqtisadi-siyasi gücün meydana gələcəyi ehtimalı çox böyükdür. Bu iqtisadi dəhliz bütün region və dünya üçün yeni imkanlar açır və Türk Dövlətləri Təşkilatının gələcək iqtisadi rolunun artmasını təmin edir".

**Millət vəkili Razi Nurullayev də bildirib ki, Türk Dövlətləri Təşkilatı bizim Avropa Birliyimizdir. Deputatın sözlərinə görə, bu təşkilat bizi çox, çox uzaqlara aparacaq:** "Türk Şurasının İstanbulda keçirilən VIII zirvə görüşü və Şuranın adının Türk Dövlətləri Təşkilatına dəyişdirilməsi göstərilən 30 illik səyin bəhrəsidir. Əslində isə düz 10 əsrdir ki, bu mübarizəni aparırdıq və sonunda oldu. Bu, Turan deyil, daha böyükdür". Deputat vurğulayıb ki, proses uzun çəkdi, amma arzularımızda olan təşkilat oldu: "Bundan sonra heç yalnız deyilik, artıq kürəyimizi söykəyə biləcəyimiz 7 qardaşıq və sayımız da artmaqda davam edəcək. Növbəti qardaşlar Pakistan, Bosniya-Hersoqovina, Ukrayna və şahidlik edəcəyimiz digər dövlətlər olacaq. XIX əsr türk - müsəlman dünyasının böyük düşüncə sahiblərindən biri İsmayıl bəy Qaspıralının dediyi yola çıxdıq: "Dildə, fikirdə, əməldə birlik!".

*R.Nurullayev Azərbaycan Prezidenti İlham Əliyevə təşkilatın "Ali Nişan"nın verilməsini yüksək dəyərləndirib:* "Bu, Azərbaycan xalqının başını uca etdi. Prezident İlham Əliyev dedi ki, bu, Azərbaycana verilmiş bir nişandır və bu fikri bölüşürəm. Bu ali nişan Azərbaycanın işğalda olan torpaqlarının azad edilməsinə, zəfərinə verilən qiymət idi".

**Politoloq Ceyhun Əhmədli də qeyd edib ki, Prezident İlham Əliyevin türk dünyasının ali mükafatı ilə təltif edilməsi Prezidentin böyük şəxsiyyətinə, türk dünyasındakı liderlik mövqeyinə, beynəlxalq miqyasda və türkdilli dövlətlər arasında olan yüksək nüfuzuna verilən yüksək dəyərin göstəricisidir.** Analitik bildirib ki, bu həm də Vətən müharibəsində qazandığımız tarixi zəfərə verilən qiymətdir: "Azərbaycan erməni işğalçılığına soy qoyaraq özünün ərazi bütövlüyünü bərpa etməklə türk birliyinin möhkəmlənməsinə mühüm töhfələr verdi. Bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açdı. Təbii ki, müharibənin ən mühüm nəticələrindən biri olan Zəngəzur dəhlizi həm də türk dünyasının böyük qələbəsidir. Xatırladaq ki, hələ 2009-cu ilin oktyabrında türkdilli dövlət başçılarının Naxçıvan Zirvə görüşündə Prezident İlham Əliyev deyirdi: "Vaxtilə Azərbaycanın tarixi torpağı, əzəli torpağı Zəngəzur bölgəsinin Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsi demək olar ki, böyük türk dünyasını coğrafi baxımdan parçaladı. Yəni türk dünyasının vahid bir ailə kimi, vahid bir qüvvə kimi fəaliyyəti on illiklər ərzində dayandırılmışdır". Bu gün Zəngəzur dəhlizinin yaradılması təkcə iqtisadi deyil, həm də böyük siyasi əhəmiyyət daşıyan hadisədir. Prezident İlham Əliyev türkdilli dövlətlər arasında coğrafi bağlılığını bərpa edərək, bütün türk dünyasının birlik arzusunun reallığa çevrilməsinə misilsiz töhfələr verdi".

*C.Əhmədli qeyd edib ki, ümumiyyətlə, hazırda regionda həyata keçirilən beynəlxalq və regional layihələr türkdilli dövlətlər arasında bağlılığa öz töhfəsini verməkdədir:* "Zəngəzur dəhlizinin açılması ilə bu bağlılıq daha da artacaq, əməkdaşlığımıza yeni bir nəfəs qatacaq, üzv ölkələr arasında yük və sərnişin daşımalarının həcminə müsbət məcrada təsir edəcəkdir. Eyni zamanda, inteqrasiya prosesləri və mexanizmləri insanlarımız arasında da təmasların intensivləşməsinə səbəb olacaq. Prezident İlham Əliyev türk dünyasında uzaqgörən, məqsədyönlü, prinsipial lider kimi şöhrət qazanıb. Xüsusən, Türk Şurasının Naxçıvandan başlanan inkişaf yolunda Prezident İlham Əliyev böyük əmək sərf edib. Türk dünyası adından verilən bu ali mükafat bu zəhmətin qiymətləndirilməsi, minnətdarlıq hissinin ifadəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təşkilatının inkişafına, onun sıralarının genişlənməsinə, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə və əlaqələrinin artmasına önəmli töhfələr verib".



# Hərbi qulluqçuların mənzillə təmin edilməsinə dair yeni tələblər müəyyənləşib

**Hərbi qulluqçunun qüsursuz hərbi xidmət müddətinə daxil edilməyən müddətlər müəyyənləşib.**

Bu, Prezident İlham Əliyevin dünən imzaladığı "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli 569 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" fərmanda əksini tapıb.

*Aşağıdakı müddətlər hərbi qulluqçunun qüsursuz hərbi xidmət müddətinə daxil edilməyəcək:*

- hərbi rütbəni aşağı salma intizam tənbehinin daha əvvəl hərbi qulluqçunun üzərindən götürülməsi halları istisna olmaqla, həmin intizam tənbehi tətbiq edildiyi gündən bir il müddəti;
- hərbi xidmət əleyhinə olan inzibati xəta törədilməsinə görə çıxarılmış inzibati tənbeh vermə haqqında qərarın icrasını bitirdiyi gündən bir il müddəti;
- məhkumluğun olduğu müddət.

Dəyişikliyə əsasən, Azərbaycan Ordusunun 20 təqvim ili və daha çox xidmət etmiş hərbi qulluqçusu qeyd olunan müddətlərdə dövlət vəsaiti hesabına mənzillə təmin edilə bilməz.

*Qeyd edək ki, Azərbaycan Ordusunun 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçuları dövlət vəsaiti hesabına mənzillə təmin edilirlər.*

# XİN Paşinyana cavab verdi

## Mövcud gərginliyə görə başlıca məsuliyyət bilavasitə Ermənistanın üzərinə düşür



**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan Təhlükəsizlik Şurasının iclasında Baş nazir Nikol Paşinyanın söylədiklərini şərh edib.**

L. Abdullayeva bildirib ki, son zamanlar Ermənistan tərəfindən həyata keçirilən təxribatlara cavab olaraq, Azərbaycan tərəfindən müvafiq tədbirlər görülür.

"Belə ki, ötən həftə, noyabrın 9-u Ermənistan silahlı qüvvələrinin 60-a yaxın şəxsi heyətinin Laçın rayonunun Qaragöl istiqamətində Azərbaycan Ordusunun mövqelərinə aparan yol üzərində cəmləşməsi, 13 noyabr tarixində Ermənistan silahlı qüvvələrinin Kəlbəcər rayonundakı Azərbaycan Ordusunun mövqelərini atəşə tutması, habelə 14 noyabrda Ermənistan silahlı qüvvələrinin iki dövlətin sərhədinin Laçın rayonunu istiqamətində cəmlənərək növbəti təxribata hazırlığına cavab olaraq Azərbaycan tərəfindən müvafiq tədbirlər həyata keçirilib.

Vurğulayırıq ki, Azərbaycan hərbçiləri ölkəmizin suveren ərazilərində xidməti vəzifələrini yerinə yetirirlər.

Həmçinin xatırladırıq ki, mövcud gərginliyə görə başlıca məsuliyyət bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür", - XİN rəsmisi vurğulayıb.

# İran da "3+3 formatı"na dəstək verəcək

## Ərdoğanın Tehran səfərində bu məsələ daha ətraflı müzakirə olunacaq



**Noyabrın 15-də Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu Tehranda iranlı həmkarı Hüseyn Əmirabdullahianla birgə mətbuat konfransı keçirib. M.Çavuşoğlu konfransda deyib ki, regionda vacib proseslər baş verir:**

"Regional məsələlərdə dialoqun davam etdirilməsi daha əhəmiyyətlidir. Cənubi Qafqazın sabitliyi, xüsusilə də "3+3 formatı" ilə bağlı İranla müzakirələr aparırıq".

O qeyd edib ki, həmçinin İraqın, Əfqanıstanın sabitliyi üçün İran və Türkiyənin mühüm addımlar ata biləcəyini düşünür.

**İranla aparılan müzakirələri "Şərq"ə şərh edən politoloq Sədrəddin Soltan bildirib ki, rəsmi Tehranın regional əməkdaşlıqla bağlı bu formata dəstək vermək niyyəti istisna edilmir:** "Türkiyə xarici işlər nazirinin səfəri zamanı Cənubi Qafqazdakı vəziyyət və Zəngəzur dəhlizi məsələsinin müzakirəsi istisna edilmir. Çünki "3+3 formatı"nda həm Türkiyə, həm də İranın maraqları təmin oluna bilər. Bundan başqa, regionda əməkdaşlığa və təhlükəsizliyə dəstək verər. İran və Türkiyə regionun aparıcı ölkələrindəndir".

*Politoloqun qənaətincə, İran da perspektivdə bu formata qoşulacaq:* "Düzdür, cənub qonşumuzun Azərbaycanla münasibətdə müəyyən gərginlik yaradan bəyanatlar və addımları olub. Amma nəticə etibarilə perspektivdə bu formata gəlməsi inkar edilmir. Ola bilər ki, yaxın zamanlarda mövcud məsələ ilə bağlı Azərbaycan, Türkiyə və İran XİN başçılarının üçtərəfli görüşü oldu. Eyni zamanda Türkiyə Prezidentinin İrana səfər edəcəyi məsələsi də nəzərdə tutulub. Güman etmək olar ki, Türkiyə dövlət başçısının İrana səfəri zamanı İran rəhbərliyi ilə regional məsələlərə, xüsusilə də Cənubi Qafqaza dair proseslərin müzakirəsinə toxunulacaq. Bununla bağlı müəyyən anlaşmalara, razılaşmalara gəlirik".

**Sücayət Mehti**

# Azərbaycan dövləti müasir ordu quruculuğunda israrlıdır

## "Müdafiə xərcləri 404 milyon manat artırılır"



**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi müzakirə olunub. Maliyyə naziri Samir Şərifov çıxışında bildirib ki, geosiyasi proseslər nəzərə alınmalıdır:**

"Silahlı Qüvvələrin müdafiə qabiliyyətinin yüksəldilməsi, işğaldan azad olunmuş ərazilərdə hərbi hissələrin yerləşdirilməsi büdcədə prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Gələn il büdcə xərclərinin 15 faizini, yəni 4 490 milyon manat təşkil edəcək. Ümumilikdə isə müdafiə xərclərində 404 milyon manat artım nəzərdə tutulub".

S.Şərifov həmçinin diqqətə çatdırıb ki, Nazirlər Kabineti tərəfindən "2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası" artıq hazırlanıb: "Sənəd Prezident İlham Əliyevə təqdim edilib. Sənədin böyük əhəmiyyətini nəzərə alaraq cənab Prezident İlham Əliyev tərəfindən bu sənədə baxılacaq. Daha sonra "2022-ci ilin dövlət büdcəsi" layihəsinə dəyişikliklər edilə biləcəyi gözlənilir".

**Müdafiə xərclərinin artırılmasının perspektivi barədə fikirlərini "Şərq"ə bölüşən Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc bildirib ki, dövlət büdcəsinin müzakirəsi həftəsini yaşayırıq:**

"Belə bir dönəmdə dövlət tərəfindən milli həyatın gələcəyi ilə bağlı düşünülən ən mühüm məsələlər müzakirə olunur. Şübhəsiz ki, bütün bunlar insanları eyni dərəcədə əhatə edir. Həmçinin onların əsas müzakirə mövzusunu təşkil edir. Media məkanında bununla bağlı müxtəlif xarakterli disskusiyalar, təhlillər, debatlar mövcuddur. Bu, çox yaxşı hadisədir. Büdcə müzakirələri yalnız müxtəlif sahələrə yönləndirilən vəsaitlərdən ibarət riyazi bir məsələ deyil. Dünyada hazırkı beynəlxalq kontekstdə və bəşəri pandemiya təhlükəsinin yaratdığı iqtisadi, sosial basqılar fonunda hər bir müəyyənləşdirilmiş iqtisadi maliyyə qərarlarının həqiqətən də özünəməxsus əhəmiyyəti var. Hazırda gerçəkdən dünyada büdcələr daha artıq dərəcədə yaşamaq yönümlü, həyatın vacib məsrəflərini müəyyənləşdirmək üzərində qurulub. Lakin belə bir dövrdə Azərbaycan dövləti yenə də özünün əvvəlki illərdə apardığı və ən sonda ona qələbə gətirən hərbi xərclərini yüksək dərəcədə büdcə vəsaitləri sırasında müəyyən edir. Bu prosesi davam etdirməkdə qərarlı olduğunu göstərir. Müharibə yetərincə silahların işlənməsi, proseslərdə sərf olunması, aparıcı, strateji xarakterli texnologiyanın burada rol oynaması deməkdir. Eləcə də hər bir atılan güllənin, mərminin, yaxud da döyüş meydanlarına qatılan tankın, topun özlüyündə yenə də ən güclü, yüksək funksionallığını və söyləndiyi kimi XXI əsrin hərbi savaşını aparmış bir dövlət kimi yüksək formasını qoruyub, saxlamaq lazımdır".

**Z.Oruc həmçinin əlavə edib ki, büdcə xərcləri sırasında müdafiə sahəsinə ayrılan vəsaitlər 12-13 faiz civarında ən önəmli yerdədir:**

"Ordu ilə bağlı dövlətin müəyyənləşdirdiyi əsas kursa ordunun modernləşdirilməsi, yeni silahların alınması, bir sıra hallarda əvvəlkilərin əvəzlənməsi, paralel şəkildə xaricdən bu cür texnoloji asılılıqların azaldılması, xüsusilə də Pakistan və qardaş Türkiyə ilə birgə hərbi sənaye kompleksinin gücləndirilməsi və genişləndirilməsi, yeni çeşiddə hərbi təyinatlı məhsulların istehsalı, o cümlədən ordumuzun qalib, qəhrəman və 70 mindən çox ordenli medalları daşıyan şəxsi heyətinin sosial ehtiyaclarının yüksək dərəcədə qarşılanması, təkcə Ermənistanla 600 km-ə yaxın sərhədlərimizin yaxşı səviyyədə qorunması, o cümlədən İranla 132 km-lik ərazilərdə hərbi nəzarət məntəqələrinin yaradılması, burada hərbi infrastrukturun genişləndirilməsi və gücləndirilməsi tədbirləri daxildir. Bu, mahiyyət etibarilə bir tərəfdən qələbəmizin qorunub, saxlanması deməkdir. Onun möhkəmləndirilməsinə xidmət edən prioritetlərdir. Orada ümumiyyətlə, sosial, iqtisadi xarakterli hər bir addım təhlükəsizlik mahiyyəti daşıyır. Çünki torpaqlarımıza böyük qayıdışdan sonra dönəcək vətəndaşlarımız nəticə etibarilə yenə də ordumuzun yüksək qoruması altında olacaq. Bu, vətəndaşlarımızın təhlükəsizliyinə yönələn investisiyadır. Buna görə də ordu ilə bağlı Azərbaycan əvvəlki dövrdəki kursdan imtina edərək indi müəyyən xərclərini ixtisar etməsi bölgədə fərqli siyasətlər aparmaq istəyən xarici və digər müxtəlif dairələrin, bir sıra hallarda faşist təmayüllərin solçu baxışlarının, xaricdən ixrac olunan ayrı-ayrı inqilabi proseslərin Azərbaycana qarşı təsirlərini və təzyiqlərini artırardı. Həmçinin ordunun qələbəsi fonunda bir sıra hallarda adekvat qiymətləndirilməzdi".

**Millət vəkili onu da əlavə edib ki, bəzi xərclərdəki dəyişikliklər ötən ildə hərbi əməliyyatlar zamanı zəruri tələblərin qarşısını almasına xidmət edib:**

"Bütövlükdə götürdükdə Ermənistanın məğlubiyyətdən sonra öz-özlüyündə bəlkə 3 milyard dollardan artıq texnika və texnologiyasının hərbi infrastrukturu dağıdılıb. Nəticədə 700 milyon dollara yaxın büdcə ilə heç bir parametr üzrə Azərbaycanla rəqabət apara bilməyəcəyi ortadadır. İndi dron zavodları yaratmağa başlayıblar. Müasir süni intellekt məhsulları ilə Silahlı Qüvvələrini təchiz edəcəklərini söyləyirlər. Sovet Amerika yarışması kimi hansısa bir rəqabətə qoşulmağa çalışırlar. Halbuki bu, sadə erməni vətəndaşlarının boğazından kəsilən vəsaitlərdir. Onu orduya yönəltməyə cəhd edirlər. Həm vəsaitlər, həm də iqtisadi güclər savaşırsa, yenə də o şəraitdə Ermənistan Azərbaycanın hərbi xərcləri ilə müqayisədə təxminən 6-7 dəfəyə yaxın geri qalır".

**Sücayət Mehti**





# Gərginlik artır

## Terrorçu Mirzoyan Azərbaycana təhvil verilməli idi

İsmayıl Qocayev

**Son günlər Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində erməni təxribatlarının intensivləşdiyinin şahidi oluruq. Məlum olduğu kimi noyabrın 13-də Şuşa şəhəri yaxınlığında erməni terrorçu Norayr Mirzoyan Azərbaycan və Rusiya hərbçilərinə qarşı təxribata əl atıb.**

Rəsmi məlumata əsasən, avtomobillə Laçın şəhəri istiqamətində hərəkətdə olan Mirzoyan Daşaltı kəndinin yaxınlığında maşından düşüb və orada xidmət aparan Azərbaycan Silahlı Qüvvələrinin əsgərlərinə doğru əl qumbarası atıb. Terakt nəticəsində üç hərbçimiz yaralanıb. Hadisədən dərhal sonra Mirzoyan Rusiya sülhməramlıları tərəfindən saxlanılıb. Amma qısa müddət sonra Ermənistana təhvil verilib. Şuşada terror aktını törədən Norayr Mirzoyanın yayılan fotoları onun sıradan yox, hərbi hazırlıqlı şəxs olduğunu təsdiqləyir. İstisna deyil ki, Mirzoyan ASALA-nın, yaxud onun uzantılarının üzvüdür. O, 44 günlük müharibədə də iştirak edib. Ermənistan özü üçün çox təhlükəli vəziyyət yaradıb. Həm Azərbaycanla sülh danışıqları aparmaqdan yayınır, həm də təxribatlar törədir. Narazılıq doğuran məqamlardan biri də proseslərdə moderator rolunu oynamaq istəyən Rusiyanın bu hadisələrə səsini çıxarmamasıdır. Rusiya Ermənistanın təxribat yaratmasına göz yumaraq öz dəstəyini bu cür göstərir.

Xatırladaq ki, noyabrın 14-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin bir qrup şəxsi heyətinin və texnikasının Laçın rayonunun sərhədi istiqamətində cəmləşdirilməsi, o cümlədən təxribata hazırlığı bölmələrimiz tərəfindən müşahidə edilib. Ötən həftə də Ermənistan tərəfi dövlət sərhədinin Laçın istiqamətində 60 nəfər şəxsi heyəti yerləşdirməklə təxribat törətməyə cəhd göstərmiş və iflasa uğramışdı. Müdafiə Nazirliyi tərəfindən bəyan edilib ki, Ermənistan tərəfinin bu kimi təxribatlarının qarşısı qətiyyətlə alınacaq. Qeyd olunub ki, İrəvanın hərbi-siyasi rəhbərliyi bu kimi avantüraya son qoymalıdır. Rusiyalı analitiklər də ermənilərin Şuşa təxribatını qınayıblar.

**Rusiya "Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko bildirib ki, Şuşa yaxınlığındakı terror aktı üçtərəfli bəyanatı pozmaq üçün törədilib. Onun sözlərinə görə, elə etmək lazımdır ki, bir daha belə terror aktı törədilməsin:** "Terrorçunun erməni tərəfinə verilməsi belə bir terror aktının törədilə bilməsinə zəmin yaradır. Ona görə də Rusiya və Azərbaycan arasında bununla bağlı ekspert məsləhətləşmələri aparılmalı, bu məsləhətləşmələrin nəticəsi olaraq gələcəkdə belə halların qarşısının alınması üçün müvafiq mexanizm yaradılmalıdır".

> "Hərbçilərimizə qarşı açıq-aşkar terror aktı həyata keçirən erməni quldurlarına qarşı tərəddüd etmədən anti-terror əməliyyatına başlamalıyıq"

Sergey Markov qeyd edib ki, Rusiya sülhməramlılarının antiterror əməliyyatı aparmaq hüququ yoxdur: "Terrorçu qumbara atan zaman ona atəş açmaq olardı, amma terrorçunun evində axtarış aparmaq üçün Rusiya sülhməramlılarının səlahiyyəti yoxdur".

**Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov isə qeyd edib ki, Şuşa yaxınlığında terror aktı Laçın dəhlizinin funksiyasını da şübhə altına alır:** "Bizim Şuşaya səfərdən 2,5 saat əvvəl Şuşa yaxınlığında törədilən terror aktı Qafqazda sülhə, Azərbaycan Ordusuna, eyni zamanda Rusiya sülhməramlılarına qarşı yönəlmişdi". Markov deyib ki, Rusiya sülhməramlıları da həmin qumbara atılan yerdə yerləşirdi: "Bir möcüzə oldu ki, Rusiya sülhməramlılarından heç kim xəsarət almadı. Bu cür terror hadisələri gələcəkdə baş verməməlidir. Terror aktının dəqiq araşdırılması aparılmalıdır. Ermənistan hakimiyyəti də terrorizmlə mübarizə aparmalıdır.

**Ermənilərin yenidən intensiv hal alan təxribatlarını "Şərq"ə dəyərləndirən Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə "Şərq"ə açıqlamasında deyib ki, müharibənin birinci ildönümündə baş verən hadisələr bir daha göstərdi ki, Ermənistan tərəfi və onu himayə edənlər məğlubiyyətin gətirdiyi reallıqları həzm etməkdə çətinlik çəkirlər.** Partiya rəhbəri bildirib ki, bir il ərzində İrəvan hökuməti həm Rusiya, həm Fransa kimi Qərb ölkələri tərəfindən daim siyasi-mənəvi dəstək gördü: "Məhz bu dəstəyin sayəsində ermənilər revanşist mövqedən və təxtibatlardan əl çəkmədilər. Ermənistandakı müəyyən dairələr xəstə təxəyyüldən vaz keçə bilmir. Rusiya sülhməramlılarının məsuliyyət bölgəsində yerləşən erməni quldurlarının təxribatlarına, suverenliyimizə təhdid yaratmalarına göz yumması, Qarabağda "şöhrət" parkının salınması, kilsə tikilməsi və s. addımlar erməniləri əməlli-başlı ruhlandırıb. Vəziyyətin gərginləşməsi Ermənistana da sərf edir. İrəvan baş verənlərə beynəlxalq diqqəti yönəltməyə, Minsk qrupunu yenidən dirçəltməyə, prosesi mümkün qədər uzatmağa çalışır. Ancaq ermənilərin təxribat üzərindən cəhdləri əbəsdir. Əlbəttə, yaşanan olaylarda ölkə ictimaiyyətinin narahatlığına və narazılığına səbəb olan məqamlar var. Məsələn, Şuşada hərbçilərimizə hücum çəkən erməni terrorçusunun rus sülhməramlıları tərəfindən saxlanılaraq qondarma rejimin "istintaq orqanlarına" verilməsi, sonra Ermənistana göndərilməsi yolverilməzdir. Bu addım Azərbaycanın suveren hüquqlarının ciddi şəkildə pozulmasıdır. Mirzoyan saxlanılan kimi dərhal bizə verilməli və ölkəmizin qanunları ilə mühakimə olunmalı idi".

**A.Əlizadə qeyd edib ki, Ermənistan dövlət olaraq səksəkəli vəziyyətdədir. Ölkə əhalisinin psixoloji-mənəvi durumu bərbaddır:** "Eyni zamanda hakimiyyət də mürəkkəb mərhələdən keçməkdədir. Lakin ermənilərə və separatçılara havadarlıq edən güclər Ermənistan hökumətinin sağlam düşünməsinə, normal davranmasına mane olur. Bu da bölgədə gərginliyin qalmasına xidmət edən amildir. Azərbaycan tərəfi Rusiyanın siyasi-hərbi rəhbərliyi qarşısında məsələ qaldırmalıdır. Öz suveren ərazimizdə anti-terror əməliyyatları aparmaq hüququna malikik. Növbəti terror hadisəsində tərəddüd etmədən anti-terror əməliyyatlarına başlamalıyıq. Hərbçimizə qarşı açıq-aşkar terror aktı həyata keçirən erməni quldurları sabah daha böyük miqyaslı təxribata əl ata bilərlər. Laçın dəhlizinə nəzarət Rusiya ilə yanaşı, Azərbaycan hərbçilərinə də həvalə edilməlidir. Davamlı sülhə nail olmaq üçün ciddi addımlar atılmalıdır".

# Təxribatlar əks effekt verdi

## Ermənilərin həyasızlığı öz başlarında çatladı



**Erməni təxribatlarına cavab olaraq Azərbaycan Qafan-Çakaten yolunda sərhəd və gömrük nəzarətinin tətbiqinə başlayıb. Çakaten, Sıxovuş, Kilsəkənd, Tsav, Nerkin Hand və digər kəndlərin əhalisi üçün iki seçim var.**

### Azərbaycan Ordusu əlavə strateji ərazilərdə möhkəmləndi

Ya Azərbaycan ərazisindən gömrük rüsumu ödəyərək keçəcəklər, ya da daha uzun məsafə qət edərək, Mehriyə, oradan Qafana gedəcəklər. Bununla Bakı Paşinyan hakimiyyətini siyasi blokadaya salır. Ermənistan hakimiyyətinin təklif etdiyi alternativ yollar isə olduqca əlverişsizdir. Yollarda qurulan yeni postlarla bağlı xəbəri erməni ictimaiyyətinin narahatlıqla qarşılaması da alternativ yolun əhəmiyyətsiz olduğundan xəbər verir. Qafan meri Gevork Parsyan təəssüf hissi ilə qorxduqlarının başlarına gəldiyini etiraf edib. O, yeni postların ermənilər üçün ciddi problem yaratdığına diqqət çəkib: "Yol bağlanıb və bu qəsəbələrin, ümumiyyətlə, alternativ yolu yoxdur. Yeganə variant Mehri vasitəsilədir. Faktiki olaraq 7-8 kilometrlik Qafan yolu 150 km uzanacaq. Ən qısa alternativ yol 90-cı illərdə tikilən, çətin keçilən yoldur ki, onun da üzərində işləmək lazım gələcək. 6 kəndin əhalisinin qayğısına qalmalıyıq". Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan da deyib ki, Ermənistan tərəfi müvafiq qərarlar qəbul edəcək, göstərilən yolda sərhəd və gömrük postları yaradacaq: "Alternativ yol bu ilin sonuna qədər hazır olacaq".

Xatırladaq ki, daha əvvəl Dövlət Gömrük Komitəsi (DGK) Qubadlı rayonu ərazisində Komitənin Cənub Ərazi Baş Gömrük İdarəsinin "Qubadlı" gömrük postunu yaradıb.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə deyib ki, erməni ordusundakı utopik düşüncələrlə yaşayan ünsürlər düşünür ki, sərhəddəki ərazilərdə möhkəmlənməklə coğrafi mənada hərbi üstünlük qazanacaqlar. Analitik bildirib ki, Azərbaycan bu ilin sentyabrında Gorus-Qafan yolunda gömrük və polis postları qurduqda iki ölkənin blokadasını gerçəkləşdirmişdi, söhbət Ermənistanla yanaşı həm də İrandan gedir:** "Ermənilərin noyabr ayında Şuşadakı və sərhəddəki təxribatlarına gəlincə, Azərbaycan bunlara növbəti dəfə yumşaq güc tətbiq edərək elə cavab verdi ki, İrəvan yenə zərbə aldı. Zəngəzur bölgəsindən keçən Qafan-Çakaten yolunu da Azərbaycan öz nəzarətinə götürüb burada sərhəd-gömrük məntəqəsini işə saldı. Ermənistan ordusunun komandanlığı isə hələ də məntiqi əsası olmayan və xəstə təxəyyülü şəxsi heyətin düşüncələrinə pərçim edir. Azərbaycan ordusunun bu ilin may ayından etibarən möhkəmləndiyi strateji nöqtələrin indi ermənilərin ələ keçirmək cəhdinin arxasında mənəvi və hərbi güc dayanmır. Əksinə, Azərbaycanın əks tədbirləri elə forma aldı ki, əlavə strateji ərazilərdə də möhkəmlənmə ilə nəticələndi. Azərbaycan Ordusunun bölmələri yumşaq hərbi güc tətbiq edərək sərhəddə düşməni geri oturdub, ermənilərin postunu ələ keçirib. Hələlik informasiyalar bu yöndədir. Bu tədbir Azərbaycan Ordusunun kontur tədbirlərinin çox cüzi hissəsidir. Bir sözlə, Ermənistan təxribatlarını gücləndirdikcə, bu, onun öz başında çatlayan tədbirlərlə yadda qalacaq. Azərbaycan digər strateji məntəqələrdə də bərqərar olacaq. Ona görə də Ermənistan baş verənlərdən düzgün nəticə çıxarmaq qabiliyyətini ortaya qoyub həyasızlığa son verməlidir".

İsmayıl Qocayev



# Zəngəzur dəhlizi məntiqi sonluğuna çatacaq

## Bu işə Azərbaycan, tərəfdaşımız Türkiyə, həmçinin qonşu Rusiya razılıq verib

Aygün Tahir

**Azərbaycanın siyasi gündəliyinin əsas mövzularından biri Zəngəzur dəhlizidir. Azərbaycan və Türkiyə rəsmiləri demək olar ki, bütün çıxışlarında Zəngəzur dəhlizinin açılması məsələsinə toxunur, müxtəlif siqnallar ötürürlər.**

Dövlət başçısı İlham Əliyev Ermənistanın 10 noyabr bəyanatına əməl etməyinin vacibliyini həmişə xatırladır. Prezident çıxışlarında qəti şəkildə Ermənistan istəsə də, istəməsə də, Zəngəzur dəhlizinin açılacağını bildirir.

Azərbaycan Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının İstanbulda keçirilən VIII Zirvə görüşündə çıxışı zamanı bəyan edib ki, "Zəngəzur dəhlizi həm türk dünyasını, həm Avropanı, həm qonşularımızı birləşdirə biləcək bir layihədir:

"Bu gün bu layihənin həyata keçirilməsi ilə bağlı fəal işlər gedir".

Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu da bəyan edib ki, Zəngəzur dəhlizi bütün türk dünyasına öz töhfəsini verəcək. Nazir qeyd edib ki, türkdilli ölkələrin iqtisadiyyatını bir-birinə bağlaya bilmək üçün logistika sahəsində əməkdaşlıq gücləndirilməlidir: "Xəzərdən keçən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) Zəngəzur dəhlizi ilə daha da güclənəcək. Bu dəhliz bütün türk dünyasının rifahına öz töhfəsini verəcək. Bu töhfədən faydalanmaq üçün Türk Şurası ölkələri arasında ticarəti daha sərbəst hala gətirməliyik".

Qeyd edək ki, bu yol həm Azərbaycanının böyük hissəsini Naxçıvanla əlaqələndirəcək, həm də Naxçıvan üzərindən Azərbaycan Türkiyə ilə birbaşa dəmiryolu və avtomobil yolu ilə əlaqə quracaq.

Qarabağ işğal olunmazdan əvvəl bu dəhliz istifadə edilib, amma işğaldan sonra Naxçıvanla quru əlaqəsi, yalnız İran ərazisindən keçməklə mümkün olub.

**Zəngəzur dəhlizinin açılmasının əhəmiyyətindən danışan politoloq Tofiq Abbasov "Şərq"ə söyləyib ki, bunun beynəlxalq əhəmiyyəti var: "Uzaqda yerləşən bölgələr üçün belə potensial imtiyazlar yaranacaq. İndiki məqamda Avropada birləşən güc mərkəzləri Şərqə doğru hərəkətə başlayıblar.** Bu istiqamətdə başqa güc mərkəzləri yaranır. İnsanlar yeni işlər qururlar, onu dünya bazarına çıxarırlar. Ona görə yeni kommunikasiyaların fəaliyyətinə ehtiyac var. Qitələrarası daşımalarda Şərq -Qərb nəqliyyat dəhlizi var. Çoxşaxəli, rektifikasiya olması son dərəcə vacibdir. Yeni nəsillərin inkişafı, istehsal olunan məhsulların həcminin böyüməsi və s. gələcəyin tələbləri ilə hesablaşmağa vadar edir. Bu səbəbə görə Zəngəzur dəhlizi Asiya ilə Avropa arasında fəaliyyət göstərəcək dəhlizdir".

**Analitikin sözlərinə görə, Zəngəzur dəhlizinin istifadəyə verilməsi bədxah qüvvələri qorxudur, sağlam gücləri isə sevindirir:** "Bölgədəki ölkələrin, eyni zamanda Çin, İndoneziya, Pakistan, Malayziya, Yaxın Şərqdə yerləşən əsasən ərəb ölkələri başa düşür ki, daşımaların artdığı dönəmdə dəhlizlərin maneəsiz işlək vəziyyətdə olması vacib əhəmiyyət kəsb edir. Zəngəzur dəhlizinin açılması gələcəyə hədəflənmiş ideyadır. Problem yaradan Ermənistan və onun arxasında dayanan qüvvələrdir. Onların "zəhmətləri" əbəsdir. Əsas güc mərkəzləri olan Azərbaycan, tərəfdaşımız Türkiyə, həmçinin qonşu Rusiya prosesə razılıq veriblər. Tərəflər məsələni məntiqi sonluğa çatdırmaq üçün çalışırlar və çalışacaqlar".

# Şuşadakı terror aktı sülhə qarşı yönəlib

**"Şuşa yaxınlığında törədilən terror aktı Azərbaycan və Rusiya tərəfindən birgə araşdırılsın".**

**Bunu Rusiyanın nüfuzlu "Natsionalnaya oborona" jurnalının baş redaktoru, məşhur hərbi ekspert İqor Korotçenko rusiyalı ekspertlərin Şuşaya səfərinin yekunları ilə bağlı dünən Bakıda keçirilən mətbuat konfransında deyib. Ekspert vurğulayıb ki, onların səfəri zamanı Şuşa yaxınlığında törədilən terror aktı Azərbaycan və Rusiya hərbçilərinə qarşı yönəlmişdi:**




> "Yaxşı olar ki, bu terrorçunun əməllərinə hüquqi qiymət verilməsi üçün ya Rusiyaya, ya Azərbaycan hüquq-mühafizə orqanlarına verilsin"

"Bu terror aktında əsas məqsəd Azərbaycan və Rusiya hərbçiləri arasında qarşıdurmaya səbəb olmaq idi. Şükür ki, terrorçu qısa müddətdə saxlanıldı. Yaxşı olar ki, bu terrorçunun əməllərinə hüquqi qiymət verilməsi üçün ya Rusiyaya, ya Azərbaycan hüquq-mühafizə orqanlarına verilsin. Ya da bu terror aktı Azərbaycan və Rusiya tərəfindən birgə araşdırılsın. Terror aktını törədən şəxs Ermənistan vətəndaşıdır və bu, beynəlxalq terror aktıdır".

### "Biz Azərbaycanın müharibədən sonra yaralarını necə sürətlə sağaltdığını gördük"

İqor Korotçenko deyib ki, Şuşada keçirilmiş konfransın məqsədi Cənubi Qafqazda vəziyyətin tənzimlənməsi məsələləri olub: "Bizim məqsədimiz aydındır - regiona sülh lazımdır. Rusiya da bunda maraqlıdır. Bütün nəqliyyat kommunikasiyalarının açılması və Zəngəzur dəhlizinin işə salınması regionun bütün ölkələrinə, o cümlədən Ermənistana fayda verəcək. Sərhədlərin delimitasiyası və demarkasiyası da böyük əhəmiyyət daşıyır". Analitik bəyan edib ki, dirçəlmiş Şuşa bütün dünya sivilizasiyası, Azərbaycanı şöhrətləndirən mərkəz deməkdir: "Şuşada Heydər Əliyev Fondunun fəaliyyəti sayəsində mədəniyyət və memarlıq mərkəzləri bərpa olunub. Füzuli Beynəlxalq Hava Limanının tikintisinin sürəti Ginnesin rekordlar kitabına düşməyə layiqdir. Bir ildən az müddət ərzində bütün növ hava gəmilərini qəbul etmək gücündə olan infrastruktur obyekti inşa edilib".

### "Azərbaycan hərbçiləri Laçın dəhlizinin təhlükəsizliyinin təmin olunmasına cəlb olunmalıdır"

Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov da təəssüflə qeyd edib ki, nümayəndə heyətinin Şuşaya səfərindən bir neçə saat əvvəl onların keçəcəyi yolda terror aktı törədilib: "Rusiya sülhməramlılarının postu Azərbaycan hərbçilərinin postundan 8-9 metr aralıda yerləşirdi. Rusiya sülhməramlıları möcüzə sayəsində xəsarət almadı. Şuşadakı terror aktı Azərbaycan, Rusiya və Ermənistan arasında üçtərəfli bəyanat çərçivəsində davam edən prosesə qarşı yönəlib". Markov vurğulayıb ki, Cənubi Qafqazda tənzimləməyə nail olmaq üçün irəliyə baxmaq lazımdır. Onun sözlərinə görə, nümayəndə heyətinin baş tutmuş səfərinin əsas məqsədi Qarabağı ziyarət və oranın bərpası ilə tanışlıq idi: "Şuşaya Rusiya tərəfindən çoxlu sayda iştirakçı, eləcə də azərbaycanlı deputatlar və ekspertlər səfər etmişdi. Vəziyyətin tənzimlənməsi ilə bağlı maraqlı təşəbbüslərin müzakirə olunduğu konfrans uğurla keçdi".

İsmayıl

# Ermənistanda siyasi böhran yaşanır

**Paşinyan sərhəddəki hadisələrə görə müdafiə nazirini işdən qovdu**



## Baş nazir günahı hərbçilərin üzərinə yıxaraq Moskvanın quracağı masaya gələ bilər

**Ermənistanın Müdafiə naziri Arşak Karapetyan vəzifəsindən azad edilib. Bu barədə dünən Ermənistan Prezident Aparatının mətbuat xidməti məlumat yayıb. Məlumata əsasən, Ermənistan prezidenti Armen Sarkisyan Baş nazir Nikol Paşinyanın təklifi əsasında Karapetyanı vəzifəsindən çıxarıb.**

Onun yerinə isə baş nazirin müavini Suren Papikyan təyin edilib. Paşinyanın müavini olmuş Suren Papikyan 1986-cı ilin aprelin 26-da Ermənistanın Stepanavan şəhərində doğulub. İrəvan Dövlət Universitetinin tarix fakultəsini bitirdikdən sonra 2012-2016-cı illərdə Sankt-Peterburq Dövlət Universitetinin aspiranturasında təhsil alıb. 2018-ci ildə Ermənistanın ərazi-idarəetmə və infrastruktur naziri təyin olunub. 2021-ci ilin avqustun 2-də baş nazirin müavini postuna yiyələnib. 2016-cı ildə Ermənistan Müdafiə Nazirliyinin "Qaregin Njde" ordeni ilə təltif olunub.

**Ermənistandakı nazir dəyişikliyini "Şərq"ə dəyərləndirən siyasi şərhçi Asif Nərimanlı deyib ki, Nikol Paşinyan Təhlükəsizlik Şurasının iclasında etiraf edib ki, Azərbaycan Ordusu bir neçə istiqamətdə irəliləyib və hadisələrin analizindən sonra Karapetyanın vəzifəsindən azad edilməsi qərarı qəbul olunub. Onun sözlərinə görə, Paşinyan Karapetyanı "günah keçisi" etdi:** "Birincisi, sərhəddə üzləşdikləri biabırçı vəziyyətin məsuliyyətindən yayınır. Karapetyanın Qarabağa səfəri, 60 erməni hərbçinin sərhəddə irəliləmək cəhdi təkbaşına verdiyi qərar deyildi. Moskvanın istədiyi üçtərəfli görüşdən yayınan Paşinyan vaxt qazanmaq və görüşə qədər sərhəddə üstünlük qazanmaqla masaya əyləşmək istəyirdi. Cəhdlər nəticə vermədi. 60 erməni hərbçi ordumuz tərəfindən mühasirəyə aldı və geri qaytardı. Azərbaycan bir neçə kilometr məsafə irəlilədi. Erməni hərbçilərin Azərbaycan Ordusu qarşısında düşdükləri vəziyyətin görüntüləri Ermənistan ictimaiyyətində hakimiyyətə qarşı ciddi etiraz yaratdı. Paşinyan çıxış yolunu baş verənlərin məsuliyyətini müdafiə nazirinin üzərinə qoymaqda gördü. İkincisi, Karapetyanı qovan Paşinyan bununla Moskvanın qurmaq istədiyi masanı dağıtmaq istəyən tərəfin özü olmadığının mesajını verir: Karapetyan Rusiyaya yaxınlığı ilə tanınan hərbçi idi, onun nazir kimi əsas səfər ünvanlarının Moskva olduğu da bunu deməyə əsas verir; Nikol son hadisələrdə Moskvaya yaxın nazirin günahkar olduğu mesajını verməklə həm də "Rusiya barmağına" işarə edir".

*Analitik qeyd edib ki, baş verənlər Paşinyana hərbi rəhbərlikdə kadr istəyini reallaşdırmaq şansı verdi:* "Karapetyanla yanaşı, baş qərargah rəisi Artak Davtyan da Moskvaya yaxın şəxsdir. Nikolun "sağ qolu" olaraq tanınan Papikyanın müdafiə naziri olması ən azı orduda balans yaratmağa imkan verə bilər. Ermənistan müdafiə nazirinin dəyişdirilməsi hadisələrin mümkün inkişafına dair gözləntilər də yaradır. Günahı hərbçilərin üzərinə yıxan Paşinyan Moskvanın quracağı masaya gələ bilər. Baş verənlər üçtərəfli masada razılaşmaq üçün Nikola imkan verir ki, erməni cəmiyyətinə "maraqlarımızı qorumaq üçün əlimizdən gələni etdik" deyə bilsin. Azərbaycanın Gorus-Qafan yolundan sonra Qafan-Çakaten yolunda da gömrük məntəqəsi qurması da Paşinyanın ictimai rəydə haqq qazanmaq imkanlarını genişləndirir. Mülki şəxsin - Papikyanın nazir olması erməni ordusu daxilində köhnə zabitlərlə yeni rəhbərlik arasında narazılığın yaranması ilə nəticələnə bilər. Bu məsələdə Davtyanın taleyi xüsusi rol oynayacaq".

**Mövzu ilə bağlı Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistanda böyük idarəetmə xaosu yaşanır. Politoloq qeyd edib ki, Ermənistanda 44 günlük savaşdan bu yana bir neçə dəfə müdafiə nazirləri qovulub:** "Problem Ermənistanın bütün idarəetmə orqanlarında yaşanır. Paşinyan heç bir təcrübəsi olmayan adamları məcburi şəkildə nazir təyin edir, idarəetməyə gətirir. Bunun da səbəbi odur ki, onun hakimiyyətə təyin eləməyə ciddi kadrları mövcud deyil. Ermənistanda hazırda çox böyük kadr böhranı yaşanır. Bu kadr böhranının fonunda təəssüflər olsun ki, Ermənistanda idarəetmənin itməsi bütün bölgə üçün təhdid yaradır. Tez-tez Ermənistandakı qarşıdurmalar Azərbaycana, Türkiyəyə, hətta Rusiyanın özünə qarşı da təxribatçı açıqlamalarla müşahidə olunur. Düşünürəm ki, Suren Papikyan da uzun müddət müdafiə naziri kimi qala bilməyəcək. Çünki Suren Papikyan özü də klassik erməni milliyyətçiliyini daşıyan və faşist düşüncəyə sahib olan, idarəetmə bacarığı olmayan adamlardan biridir. Baş nazirin müavini kimi də kifayət qədər narazılığa səbəb olmuş bir personadır. Hərbi sahə ilə ümumiyyətlə, əlaqəsi yoxdur. Bütövlükdə, Ermənistan 10 noyabr bəyanatının müddəalarına əməl etmədikcə, Ermənistandakı xaos vəziyyət daha da dərinləşəcək. Ölkədəki siyasi, iqtisadi inflyasiya daha da pik həddə çatacaq".

**İsmayıl Qocayev,**
**Aynurə Pənahqızı**

**Noyabrın 15-də Brüssel şəhərinə işgüzar səfəri çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov NATO-nun mənzil-qərargahında NATO Baş katibinin müavini Mirça Ceoana ilə görüşüb.**



Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb.

# NATO Azərbaycanın müdafiə islahatlarını yüksək qiymətləndirib

Görüşdə NATO-Azərbaycan tərəfdaşlığının aktual məsələləri, gələcək inkişaf perspektivləri, eləcə də regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

C.Bayramov Azərbaycan-NATO tərəfdaşlığının bir sıra istiqamətləri üzrə əldə edilmiş nəticələrdən məmnunluq ifadə edib. Ölkəmizin beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına dəstəyi kontekstində NATO əməliyyatlarına töhfələri məsələsinə toxunub. Nazir Vətən müharibəsi nəticəsində işğaldan azad etdiyimiz ərazilərdə Azərbaycan hökuməti tərəfindən həyata keçirilən bərpa və quruculuq işləri barədə NATO rəsmisinə məlumat verib. Torpaqlarımızın işğalı amilinin aradan qaldırılması xüsusunda Azərbaycanın beynəlxalq hüququn prinsipləri əsasında Ermənistanla münasibətləri normallaşdırmağa hazır olduğu vurğulanıb.

NATO tərəfi Azərbaycanın müdafiə islahatları və NATO missiyalarına töhfələrini yüksək qiymətləndirib. Baş katibin müavini Azərbaycana Alyans ilə tərəfdaşlığa, xüsusilə də Əfqanıstanda həyata keçirilən əməliyyatda iştirakına görə təşəkkürünü bildirib.

*Tərəflər Sülh Naminə Tərəfdaşlıq Proqramının məqsəd və prinsiplərinə uyğun olaraq, siyasi dialoq və praktiki əməkdaşlığın davam etməsinə dair hazırlıqlarını ifadə ediblər.*

# Ağdam sakini minaya düşərək ölüb

## Onun nəşini ərazidən çıxarmaq mümkün olmayıb




**Ağdamın işğaldan azad olunan Tağıbəyli kəndi ərazisində minaya düşərək həlak olan Ağayev Zaur İsa oğlunun nəşini ərazidən çıxartmaq mümkün olmayıb.**

Trend-in Qarabağ bürosu xəbər verir ki, hadisə yerinə cəlb olunmuş mütəxəssislər bunu ərazinin təhlükəli olması ilə əlaqələndiriblər.

Onun sabah (bu gün) səhər saatlarında ərazidən götürüləcəyi deyilir.

Xatırladaq ki, noyabrın 15-də saat 17 radələrində 1980-ci il təvəllüdlü Ağayev Zaur İsa oğlunun Ağdam rayonunun işğaldan azad edilmiş Tağıbəyli kəndi ərazisində piyada əleyhinə minaya düşməsi barədə rayon prokurorluğuna məlumat daxil olub. Ağdam rayon prokurorluğunda aparılmış araşdırmalarla Zaur Ağayevin kənd-təsərrüfat fəaliyyəti ilə məşğul olarkən qeyd edilən ərazidə minaya düşməsi nəticəsində ölməsi müəyyən edilib.

Faktla bağlı Ağdam Rayon Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Hazırda cinayət işi üzrə istintaq davam edir.

# Atəş səsləri hələ çox eşidiləcək

## Kreml Ermənistanla Azərbaycan arasında sülhün əldə edilməsində maraqlı deyil




**Ermənistan tərəfi Azərbaycanla sərhəddə atəşkəsi ardıcıl olaraq pozmaqdadır. Erməni silahlı qüvvələrinin bölmələri noyabrın 15-i gecə saatlarından başlayaraq Kəlbəcər rayonunun Zəylik və Yellicə yaşayış məntəqələrində yerləşən Azərbaycan Ordusunun mövqelərini atəşə tutublar.**

Mövqelərimiz heç bir səbəb olmadan snayper tüfəngi və qumbaraatan da daxil olmaqla müxtəlif çaplı atıcı silahlardan istifadə edən qarşı tərəfin intensiv atəşinə məruz qalıb. Bundan əlavə infrastrukturun bərpası məqsədilə yol işləri aparan traktor və 2 ədəd "KamAZ" markalı avtomobil də Ermənistan hərbi bölmələrinin hədəfinə tuş gəlib. Texnikaya zərər dəysə də şəxsi heyət arasında xəsarət alan olmayıb. Həmin günün səhəri Ermənistan tərəfi Kəlbəcər və Laçın istiqamətində ikinci dəfə atəşkəsi pozublar. Baş verənlərdən sonra Müdafiə Nazirliyi Ermənistanın hərbi-siyasi rəhbərliyinə növbəti dəfə xəbərdarlıq edib. Bildirib ki, dövlət sərhədində yaradılan istənilən qarşıdurmanın nəticələrinə görə, bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşəcək.

**Milli Cəbhə Partiyasının sədr müavini Məhəmməd Əsədullazadə "Şərq"ə bildirib ki, Ermənistanın dövlət sərhədinin Laçın və Kəlbəcər istiqamətində atəşkəsi mütəmadi pozması və hücum planı strateji yüksəklikləri ələ keçirib, delimitasiya prosesində mövqeyini gücləndirməkdən ibarətdir.** Politoloqa görə, hazırda danışıqlar prosesi məhz İrəvan tərəfindən pozulub, ortada heç bir müsbət nəticə yoxdur: "Ermənistan Baş naziri Nikol Paşinyan Rusiyanın danışıqlar prosesində vasitəçiliyini və danışıqlar normal aparılacaqsa, Moskvanın Ermənistanda siyasi mövqelərinin gücləndirilməsinə gətirib çıxaracağından çəkinir. Kreml də Ermənistan və Azərbaycan arasında sülhün əldə edilməsində maraqlı deyil. Təbii ki, baş verənlər mövcud situasiyanı gərginləşdirir. Azərbaycanla yanaşı, Ermənistan da dövlət sərhədində Rusiya silahlı qüvvələrinin olmasını istəmir. O səbəbdən Azərbaycanın strateji yüksəkliklərdə möhkəmlənməsi və erməni ordusunu buradan çıxarması fonunda İrəvan Rusiyaya müraciət etməkdən imtina edir. İrəvan çalışır ki, Naxçıvanla Azərbaycanı birləşdirəcək avtomobil yolu Rusiyanın nəzarətində olmasın. Bu, Azərbaycanın da maraqlarına cavab verir. Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi ərazilərdə ermənilərin sərbəst fəaliyyətinə gəldikdə isə Moskva bununla Azərbaycana qarşı yeni senarilər hazırlayır. Bu, əsasən terror-təxribat və diversiya fəaliyyəti ola bilər. Yaxın zamanda anti-terror əməliyyatlarına başlamaqdan başqa çarəmiz yoxdur. Türkiyənin də əməliyyatlarda iştirakı mümkündür. Şuşa Bəyannaməsi Türkiyənin birbaşa Azərbaycana hərbi kömək göstərməsini labüd edir. Baş verənlər vəziyyəti gəginləşdirməyə hesablansa da, ümumən proseslər Azərbaycanın lehinə olacaq".

**İsmayıl Qocayev**

**Bazar və marketlərdə yerli kartof bahadır, həm də azdır. Qazax kartofunun qiyməti 2 manata qalxıb. İrandan gətirilən kartofun qiyməti isə 80-90 qəpik arası dəyişir. Əhali ucuz kartofun yerli deyil, məhz İran, ya da Rusiyadan gətirildiyini bilir artıq.**

**"Çünki fermerə lazımi dəstək göstərilməyib. Ona görə də yerli məhsul qıtlığı yaşanır"**



# Yerli məhsullar "quş südü"nə dönüb

**Əhali uzun müddətdir keyfiyyətsiz GMO kartoflarla qidalanır**

Amma bu kartofların keyfiyyətsiz olduğu da bəllidir. Nə edəsən ki, Gədəbəy, Tovuz, Qazax, Şəmkir, Cəlilabad kartofları "quş südü"nə dönüb. Əhali uzun illərdir keyfiyyətsiz, GMO (genetik modifikasiya olunmuş) kartoflarla qidalanır. Bunun orqanizm üçün fəsadlarını hələlik qoyaq kənara. Hərçənd, əsas məsələ elə bu olmalıdır. Ancaq ümumilikdə ərzaq məhsullarının qiyməti göylərdə "oynadığı" bir vaxtda keyfiyyət istər-istəməz ikinci plana keçir. Birinci yeri kəmiyyət və qiymət tutur. Nəinki yerli məhsullar, xaricdən gətirilən məhsulların da qiymətində nəzərəçarpan artım müşahidə edilir. Bir tərəfdən qiymət bahalığı, bir tərəfdən də keyfiyyətsiz məhsul. Satışdakı kartofların sir-sifətinə baxanda insanın iştahı da qaçır. Soğanlar da belədir. Kəsirsən, içi çürük. Səbəbini də məhsulların uzun müddət soyuducu anbarlarda saxlanması göstərilir. Soyuq mühitdə saxlanaraq dondurulmuş məhsul gün üzünə çıxan kimi buzu əriyir, qısa zamanda çürüməyə başlayır. Ölkəyə keyfiyyətsiz məhsul idxal edənlər də hələ var. Bu günlərdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən həyata keçirilən nəzarət tədbirləri zamanı fiziki şəxs Məcidov Əhliman Əli oğlu tərəfindən Rusiya Federasiyasından ölkəmizə idxal edilən 67000 kq toxumluq kartof məhsuluna baxış keçirilib. AQTA-nın məlumatında qeyd olunur ki, baxış zamanı idxal olunan məhsuldan nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasında müayinələrə cəlb olunub. Müayinələr nəticəsində nümunələrdə karantin tətbiq edilən orqanizm ("Ralstonia solanacearum" - kartofun qonur çürüməsi) aşkar edilib. Agentlik tərəfindən istifadəyə yararsız toxumluq kartof məhsulu partiyasının məhv edilməsi barədə qərar qəbul edilib. AQTA əhalinin sağlamlığının qorunması və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi istiqamətində ardıcıl tədbirlərini davam etdirir və istehlakçı hüquqlarının pozulmasına yönəlmiş qanunsuz halların qarşısının alınması istiqamətində müvafiq tədbirlər görülür.

**İqtisadçı Əkrəm Həsənov "Şərq"ə açıqlamasında yerli məhsul qıtlığının əsas səbəbinin kənd təsərrüfatının zamanında inkişaf etdirilməməsi olduğunu dedi:**

- Əsas səbəb məlumdu. Kənd təsərrüfatının inkişaf etdirilməsi zaman tələb edir. Vaxtında buna diqqət edilmədi. Bütün sahələr neft gəlirləri üzərinə yükləndi. İndi isə neftdən asılılığı azaltmağa çalışırlar. Kənd təsərrüfatının da dirçəldilməsi tələb olunur. Görürük ki, bu sahədə güzəştlər tətbiq edilir. Subsidiyalar ayrılır, yeni şirkətlər, səhmdar cəmiyyətlər yaradılır və sair. Kənd təsərrüfatının qaydası budur ki, məhsulun həcmi çox olduqda gəlir gətirir. Əks halda qiymət bahalaşması labüddür. Problem bundadır ki, bizdə fermerlər geniş sahələrdə əkinlə məşğul ola bilmir. Bunun üçün maddi imkanlar olmalı və fermerə dövlət dəstəyi olmalıdır. Fermer yetişdirdiyi məhsulun bazara çıxarılıb satılmasından və ona gəlir gətirəcəyindən arxayın olmadığı üçün böyük məhsuldarlığa risk etmir. Qorxur ki, məhsul əlində qalar, çəkdiyi xərc batar. Ona görə də məhsulun həcmi az olur, qiymətsə baha. Bunun da səbəbi investisiya mühitinin zəif olmasıdır. Fermer banklardan böyük həcmli kredit almağa risk etmir. Şərikli biznez qurmağa da həmçinin. Çünki məhkəmə-hüquq sisteminə bel bağlaya bilmir. Fermer sabah digər səhmdarlarla arasında yarana biləcək anlaşılmazlıqda ədalətli qərar qəbul ediləcəyinə də arxayın deyil. Amma investor bilsə ki, 10 nəfərlə birləşib böyük təsərrüfat qursalar, geniş ərazidə məhsul becərsələr və kimsə cığallıq etsə, məhkəmə ədalətli qərar verəcək, buna gedər. XİX əsrdə Karl Marks yazırdı ki, Qərb kapitalizmi səhmdar cəmiyyətlərin birləşməsi ilə inkişaf etdi. Bir var, insan təkbaşına işləyə, bir də var, bir neçə nəfərin əməyi birləşdirilə. Birgəlik müsbət nəticələrə nail olmaq üçün daha uyğun variantdır. Amma ədalətli, hüquqa əsaslanan birləşmə olmalıdır.

**Ə.Həsənov qeyd etdi ki, Gədəbəy, Tovuz, Qazax, Şəmkir və digər bölgələrdə kifayət qədər geniş əkin sahələri mövcuddur:**

- Lakin, əkən yoxdur. Çünki fermerə lazımi dəstək göstərilməyib. Ona görə də yerli məhsul qıtlığı yaşanır. Bölgələrdəki əhali də əkib-becərib, həm özlərini lazımi səviyyədə maddi cəhətdən təmin etmək, əhalini də yerli, keyfiyyətli məhsullarla təmin etmək əvəzinə, paytaxta axışıb, tikintilərdə günəmuzd çalışırlar.

**Məlahət Rzayeva**

# "Avropa Ordusu" layihəsi reallaşmaq üzrədir

## Böyük ehtimalla yaxın vaxtlarda Avropa Birliyinə üzv olan dövlətlər bu sənədi müzakirəyə çıxaracaqlar



**Avropa İttifaqı (Aİ) 2023-cü ildə özünün tarixdə ilk hərbi təlimlərini keçirməyi planlaşdırır. Bu barədə İspaniyanın "El Pais" qəzeti yazır. Qeyd olunur ki, bu barədə Aİ-nin "Strateji kompas" adlı təhlükəsizlik konsepsiyasında deyilir. Sənədə əsasən, 2023-cü ildən başlayaraq Avropa İttifaqının müntəzəm hərbi təlimlərinin, o cümlədən hərbi-dəniz təlimlərinin keçirilməsi nəzərdə tutulur.**

Qeyd edək ki, bir neçə gün əvvəl Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali komissarı Jozef Borrel Aİ-nin "Strateji kompas" adlı təhlükəsizlik konsepsiyasının 2022-ci ilin yazınadək qəbul oluna biləcəyini bildirmişdi.

**Məsələ ilə bağlı "Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov "Şərq"ə açıqlamasında bildirib ki, uzun illərdir müzakirəsi gedən "Avropa Ordusu" layihəsi getdikcə reallaşmağa doğru irəliləyir. Politoloq qeyd edib ki, Avropa Birliyi Xarici İşlər Komissarı Jozef Borrel tərəfindən hazırlanmış 28 səhifəlik "Strateji Pusula" adlı sənəddə ordunun qurulması üçün bütün müddəalar yer alıb:** "Bir neçə gün öncə bununla bağlı Avropa Birliyi ölkələri arasında bir müzakirə sənədi hazırlanıb və 27 Avropa Birliyi dövlətinin hər birinə göndərilib. Güman ki, yaxın vaxtlarda Avropa Birliyinə üzv olan dövlətlər bu sənədi müzakirəyə çıxaracaqlar. İlk variantda ordunun adı "Böhrana müdaxil qrupu" və tərkibi 5 min şəxsi heyətdən ibarət olacağı iddia edilir. Eyni zamanda mətbuatda ordunun hava və quru qoşunlarından ibarət olacağı da bildirilir. "Avropa Ordusu"nun əsas təşəbbüskarları Almaniya və Fransa iddia edir ki, sözügedən qurum NATO-ya alternativ olmayacaq və yalnızca təyinatına uyğun olaraq istifadə ediləcək. Hazırlanmış sənəddə o da qeyd edilir ki, NATO Avropanın təhlükəsizliyinin əsas təminatçısıdır. Tarixə nəzər saldıqda isə "Avropa Ordusu"nun yaradılması ilə bağlı təşəbbüslər bir neçə dəfə irəli sürülüb. Hətta Fransa Prezidenti Şarl de Qolun zamanında "Avropa Ordusu"nun yaradılması ilə bağlı təşəbbüslər irəli sürülüb, amma ABŞ-ın müdaxiləsi ilə bu təşəbbüs nəticəsiz qalıb. Son zamanlar isə bu məsələ ilə bağlı yeni təşəbbüslər irəli sürülməkdədir. Görünən odur ki, mart ayında Avropa Birliyinə üzv olan dövlətlərin rəhbərləri arasında keçiriləcək zirvə toplantısında bu məsələ müzakirə edilib qəbul edilə bilər. 23 iyun 2016-cı ildə Böyük Britaniyanın Avropa Birliyindən çıxmasından sonra sözügedən ordu ilə bağlı iddialar daha da güclənməkdədir. Bir müddət öncə ABŞ, İngiltərə və Avstraliyanın yaratdığı AUKUS müqaviləsini imzaladılar. Bu müqaviləyə əsasən Avstraliya dəyəri 60 milyard dollar olan nüvə daşıyan sualtı gəmilərin alışını dayandıraraq ABŞ-dan almaq barədə müqavilə imzaladı. Bu addım o həddə çatdı ki, tərəflər arasında diplomatik skandal yaşandı və dövlətlər qarşılıqlı şəkildə səfirlərini geri çağırdılar. Eyni zamanda son vaxtlar ABŞ-ın Yunanıstanda hərbi bazalarını artırması da Avropa Birliyini narahat edən məsələlər sırasında görünür. Təbii ki, Fransa və Almaniya tərəfindən yaradılması nəzərdə tutulan "Avropa Ordusu" layihəsinin də gerçəkləşməsinə təkan verən amillərdən hesab edilə bilər".

**S.Hümbətov qeyd edib ki, bütün baş vermiş və baş verən bu proseslərə nəzər saldıqda bir sıra nəticələri çıxarmaq olar:** "Fransa və Almaniya digər Avropa Birliyi dövlətlərini də proseslərə cəlb etməklə tədricən xarici asılılıqdan qurtulmağa, vahid valyuta olduğu kimi vahid ordu da yaratmağa çalışır. Fransa İngiltərənin Avropa Birliyində olmaması və ona nüfuz edə bilməməsindən istifadə edərək qurumu Almaniya ilə birgə öz təsiri altında saxlamaq niyyətindədir. Gələcəkdə ehtimalı böyük olan Rusiya və Çin təhdidinə qarşı özünün alternativ təhlükəsizlik konsepsiyasını ortaya qoymağa çalışır. Söylənilən bu fikirlər prinsip etibarı ilə qərbin, daha dəqiq desək, Avropa Birliyinin yenidən formalaşdırılması üçün ciddi-cəhdlərin olduğunu deməyə əsas verir".

**Aynurə Pənahqızı**



**"Dünyada qaçqın, məcburi köçkün və sığınacaq istəyənlərin sayı 84 milyon nəfərə çatıb". Bu barədə "Şərq"ə Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib. Analitik bildirib ki, təkcə bu il qaçqın düşənlərin sayı 2 milyon nəfərdir:**

"Qaçqın və məcburi köçkünlərin sayının artmasına münaqişələrlə yanaşı iqlim dəyişikliyi və pandemiya da səbəb olub. BMT-nin qaçqınlarla bağlı son hesabatına görə, dünyadakı qaçqınların böyük əksəriyyətini suriyalılar, əfqanlar və fələstinlilər təşkil edir. Təxminən 4 milyon Venesuela vətəndaşı ölkələrini tərk etsələr də, heç bir yerdə qaçqın kimi uçota alınmayıblar. Sığınacaq üçün başqa ölkələrə üz tutanların sayı da təxminən o qədərdir. Ümumilikdə, ilin ilk yarısında məcburi köçkünlərin sayında illik əsasda 50 faizədək artım qeydə alınıb. Hazırda Polşa-Belarus sərhədində ən azı 2000 mühacir var. Avropa İttifaqının (Aİ) icra orqanı olan Avropa Komissiyası Belarus lideri Aleksandr Lukaşenkonu miqrantları asan giriş vədi ilə Aİ sərhədinə yönləndirməkdə ittiham edib. Komissiya bunu "qeyri-insani və qanqstervari" yanaşma adlandırıb. Lukaşenko isə ona qarşı irəli sürülən "problemin memarı" ittihamını rədd edir".

# Təkcə bu il 2 milyon insan qaçqın düşüb

## Qaçqın böhranı artıq silah və təsir rıçağı kimi bütün böyük ölkələrin fəaliyyətinin nəticəsi kimi meydana çıxır

**Ə.Əlibəyli qeyd edib ki, Türkiyə lideri R.T.Ərdoğan Yunanıstanın Baş naziri Kiriakos Mitsotakisin hazırda Belarus-Polşa sərhədində yaşanan miqrant böhranında Türkiyəni ittiham etməsini nankorluq adlandırıb:** "Ərdoğan miqrantları geri qaytarmaqla ölümə məhkum edən ölkənin Yunanıstan olduğunu və bu ölkənin ABŞ-ın hərbi bazasına çevrildiyini bəyan edib. İndi ortadakı mənzərəyə baxaq: qaçqın böhranı artıq silah və təsir rıçağı kimi bütün böyük ölkələrin fəaliyyətinin nəticəsi kimi meydana çıxır. Yəni Suriyada, Əfqanıstanda hansısa ailə qaçqın düşürsə, bunun əsas səbəbi ABŞ və ya başqa dünya gücüdür. Avropa Türkiyəyə və ya Yunanıstana bütün istiqamətlərdə təsir və təzyiq altda saxlamaq üçün çalışacaqsa, qaçqınlara ev sahibliyi edən ölkələrin hansı alternativ addımları qala bilər ki?".

**İsmayıl**



# Daha bölgədə Minsk qrupuna yer yoxdur

## Həmsədrlərin yenidən canlanmaları Amerika və Fransanın proseslərə müdaxiləsi ilə əlaqədardır

**Təxminən 30 il müddətində Qarabağ məsələsinin həlli istiqamətində ATƏT-in Minsk qrupu heç bir effektiv addım atmayıb.**

Ümumiyyətlə, Minsk qrupunun əsas vəzifəsi Ermənistan-Azərbaycan konfliktini nizama salmaq və Dağlıq Qarabağ problemini dinc vasitələrlə həll etmək üçün müvafiq sənəd hazırlamaq, xüsusi Minsk konfransı çağırmaqla bu konflikti birdəfəlik aradan qaldırmaq idi. Lakin sözügedən təşkilat öz missiyasının öhdəsindən gələ bilmədi, bəlkə də gəlmədi.

Buna rəğmən Azərbaycan 44 günlük Vətən savaşında Minsk qrupu, eləcə də BMT nizamnaməsinin şərtlərini icra edərək beynəlxalq hüquq və ədaləti bərpa etdi.

Yəni Azərbaycan Cənubi Qafqazda yeni reallıq yaratdı. Bu mənada Minsk qrupu avtomatik "ofsayt"da qaldı. Bir sözlə, Minsk qrupunun fəaliyyəti Qarabağ müharibəsi ilə eyni vaxtda bitdi. Buna baxmayaraq bəzi qüvvələr adıçəkilən təşkilata yenidən "nəfəs vermək" istəyirlər.

Amma... Gəlin, "amma"nın davamını sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynlidən soruşaq.

Ekspert "Şərq"ə açıqlamasında söyləyib ki, ATƏT-in Minsk qrupu yararsız olduğunu göstərib: "Tərəflərdən biri işğalçı, digəri isə işğala məruz qalan idi. Minsk qrupunun işğalçını öz adı ilə adlandırmağa cəsarəti çatmadı. ATƏT-in Minsk qrupu həmsədrlərinin yenidən canlanmaları Amerika və Fransanın proseslərə müdaxiləsi ilə əlaqədardır.

Həmsədrlərdən biri olan Rusiya məsələnin həllində iştirak edir, buranı özünün "arxa bağça"sı hesab edir.

Rusiya Prezidenti Vladimir Putin forumda dedi ki, problemləri ikinci tərəfin iştirakı olmadan Moskvanın vasitəçiliyi ilə həll edəcəyik. Kreml gah nala vurur, gah da mıxa. Minsk qrupunun məqsədi Qarabağın dağlıq hissəsində yaşayan separatçıların "status" məsələsini həll etməkdir. Azərbaycanın maraqlarının əleyhinə hərəkət etmək xristian dünyasının manevridir. İlk növbədə Amerika ilə Fransanın niyyətidir.

İndiyədək Minsk qrupu sülhyaratma işinə töhfə verə bilməyiblər. Ona görə də Azərbaycan bunu qətiyyətlə qəbul etmir".

**Aygün Tahir**

# Rusiya Krımdan geri çəkilməyəcək

## NATO Ukraynanı dəstəkləsə də problemlər çoxdur

**"Rusiyanı eskalasiyadan çəkinməyə, gərginliyi azaltmağa çağırırıq". Bunu NATO Baş katibi Yens Stoltenberq Ukraynanın Xarici işlər naziri Dmitri Kuleba ilə birgə keçirdiyi mətbuat konfransında deyib. NATO Baş katibi bildirib ki, son zamanlar Rusiya hərbi qüvvələrinin Ukrayna ilə sərhədə cəmləməsi müşahidə olunur.**

Y.Stoltenberq vurğulayıb ki, biz daha əvvəl Rusiyanın Ukraynaya qarşı aqressiv yanaşmasının, hərbi qüvvələrdən istifadə niyyətini və təcrübəsini görmüşük: "Rusiyanı bu qüvvələri hansı məqsədlə toplaması barədə şəffaf olmağa, eskalasiya yaratmamağa və gərginliyi azaltmağa çağırırıq. Öncə də qeyd etdiyim kimi daha əvvəl Rusiyanın Ukraynaya qarşı aqressiv fəaliyyətini görmüşük, bu təkcə sərhəddə deyil, Ukraynanın daxilində - Krımda və Donbasda baş verib. Ona görə də Rusiyanın potensial aqressiv fəaliyyəti ilə bağlı diqqətli olmalıyıq".

**Mövzuya münasibət bildirən politoloq Elman Vəliyev "Şərq"ə açıqlamasında bildirib ki, Rusiya Belarus və Ukraynanı öz hakimiyyəti altında görmək istəyir. Politoloq qeyd edib ki, ancaq Rusiya bunu diplomatik yolla etməyə çalışır:** "Belarus Prezidenti Lukaşenko ilə ittifaq dövləti adı altında bir anlaşma imzalandı. Bununla da Rusiya Belarus üzərində dominantlığını daha da artırdı, yəni Belarus Rusiyanın qəyyumluğuna keçdi desək yanılmarıq. Belarusdan sonra növbədə Ukrayna var. Ancaq iş burasındadır ki, Ukraynanın başında dayanan Belarusdakı kimi deyil. Bu da Rusiyanın işini bir qədər çətinləşdirir".



E.Vəliyev diqqətə çatdırıb ki, NATO Rusiyanın gücünün daha da artmasını istəmir: "Belarusun Rusiyanın himayəçiliyinə keçməməsi üçün əlindən gələni etsə də, buna nail ola bilmədi. Çünki Prezident Lukaşenko Rusiyanın mövqeyini seçdi. Amma Ukrayna Prezidenti Zelenski Rusiyaya meyilli deyil. NATO da bundan istifadə edərək Ukraynanı təhrik edir ki, ərazi bütövlüyünü bərpa etsin. Ukrayna yaxşı bilir ki, təkbaşına bu mümkünsüzdür. Bu işdə NATO-nun köməyi lazımdır. NATO-da riskə girib Rusiya ilə müqavimət aparmaqdan ehtiyat edir. Amerika da Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyini desə də, əməldə bunu göstərmir. Rusiya isə Ukraynaya qarşı güc tətbiq etmək istəmir, çünki o ehtiyat edir ki, NATO Ukraynanı qorumaq üçün həmləyə əl ata bilər. Zənn etmirəm ki, Rusiya Krımdan geri çəkiləcək. Krımın strateji mövqeyi olduqca önəmlidir. Çünki Rusiya Krım vasitəsilə Qara dənizdə maraqlarını təmin edə bilir".

**Aynurə Pənahqızı**

# Videogörüntülərdə hər şey aydın görünür

## Son terror aksiyasında Rusiya fiaskoya uğradı

**"Terror ermənilərin son silahıdır və uzunmüddətli manipulyasiyaları, diplomatik, siyasi və hərbi manevrlərinin bu və ya digər prosesə təsiri azalanda terrora əl atır".**

*Bunu siyasi şərhçi, "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli deyib. Ekspert qeyd edib ki, təəssüf ki, bir çox hallarda bölgədə davamlı sülhün təmin olunması ilə bağlı həyata keçirilən prosesi sıfırlamağı bacarırlar:* "Azərbaycan torpaqlarının işğal altında olduğu zaman kəsiyində münaqişəyə son qoyulması, sülh müqaviləsinin imzalanması üçün ən əlverişli şərait 1999-cu ildə, ATƏT-in İstanbul sammiti öncəsi yaranmışdı. Lakin həmin il oktyabrın 27-də gerçəkləşdirilən terror aksiyası aparılan danışıqlar nəticəsində əldə olunan nəticələrin gündəmdən çıxarılmasına və prosesin de-fakto sıfırlanmasına zəmin yaratdı. İndi Ermənistanda həmin dövrdə baş verən terror aksiyasının Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirəcək dəhlizlə bağlı olduğu bildirilir. Qeyd olunur ki, guya, qətlə yetirilən şəxslər Azərbaycanla Ermənistan arasında "ərazi mübadiləsi"nin əleyhinə olduqları üçün qətlə yetiriliblər. Amma istər həmin dövrdə, istərsə də daha sonra baş verənlər bunun əksini sübuta yetirir. Serj Sarkisyanın qardaşı Saşik Sarkisyanın 2007-ci ildə, Sankt-Peterburqda, erməni kriminal avtoritet Tevosikin yaxın qohumunun dəfnində söylədiyi həmin dövrdə Ermənistan mediasının gündəminə çevrilən sözlər də parlamentdə baş verən kütləvi qətliamın arxasında Koçaryan-Sarkisyan cinayətkar tandeminin dayandığını təsdiqləyir. Xatırladaq ki, Saşik Sarkisyan öz fikirlərini çoxsaylı şahidlərin yanında belə ifadə etmişdi: "Biz parlamentdə bu qədər adamı ona görə yerə sərmədik ki, bu gün hakimiyyəti asanlıqla təhvil verək". Koçaryan-Sarkisyan hərbi cinayətkar rejiminin terrorla aradan qaldırdığı baş nazir Vazgen Sarkisyan və spiker Karen Dəmirçyan sülh danışıqlarının nəticəyə varmasının tərəfdarı kimi çıxış edir. Bölgədə davamlı sülhə nail olmaq üçün münaqişəyə son qoyulmasının vacibliyini bildirirdilər. Ermənistan cəmiyyətində nüfuz və söz sahibi olan bu iki siyasətçinin önə çıxmaları, şübhəsiz, cinayətkar klanın siyasi arenadan silinməsinə gətirib çıxaracaqdı. Bu baxımdan da son anda ermənilərin klassik "silahı" işə düşdü. Həm danışıqlar prosesi sıfırlandı, həm də müharibə cinayətkarları güclü rəqiblərindən xilas ola bildilər".



**Bunu kompensasiya etmək Moskva üçün çox çətin olacaq**

*E.Mirzəbəyli deyib ki, 2016-cı ilin aprel döyüşlərindən sonra dalana dirənən Serj Sarkisyan, Rusiyanın vasitəçiliyi ilə Azərbaycan qarşısında götürdüyü öhdəliklərdən yaxa qurtarmaq üçün yenə də terrora əl atdı:* "Bu dəfə "Sasna tsrer" adlı, artıq siyasi partiyaya çevrilmiş hərəkat - terror qrupu işə düşdü. Serj Sarkisyan üçün "ölkədəki vəziyyətin gərgin olduğunu və bu səbəbdən öhdəliklərin yerinə yetirilməsinin mümkünsüzlüyünü" bəhanə gətirmək imkanı yarandı. Eyni dəst-xətt yenidən nəzərə çarpmaqdadır. Azərbaycanla Ermənistan arasında yeni sənədlərin imzalanacağı barədə məlumatların gündəmi zəbt etdiyi bir vaxtda, Daşaltıda "Sasna tserer" terror qrupunun üzvlərindən biri tərəfindən Azərbaycan əsgərlərinə qumbara atılır. Yenə hansısa mühüm qərarların qəbul ediləci ilə bağlı reallıqların nəzərə çarpdığı bir vaxtda və yenə də terror aksiyası baş verir.

Ermənistanda "Sasna Tsrer"ə münasibət birmənalı deyil. Bunu 1918-ci ildən "siyasi partiya" çətiri altına keçmiş terror təşkilatının son parlament seçkilərində topladığı səs də sübuta yetirir. Amma burada bir məqamın da nəzərə alınmasını vacib sayıram. "Sasna Tsrer"in 2016-cı ildə həbs edilmiş üzvləri, o cümlədən terror təşkilatının qurucusu Jirayr Safilyan, məhz Nikol Paşinyan hakimiyyətə sahibləndikdən sonra azadlığa buraxılıblar. Həmin dövrdə Nikol Paşinyanın bu addımı radikal millətçilərin səslərinin parçalanması, Rusiyayönümlü millətçilərin Qərbyönümlü millətçilər vasitəsilə sıxışdırılması məqsədilə atdığını bildirmişdim. Bu gün də belə düşünürəm".

**Siyasi icmalçı vurğulayıb ki, Ermənistan mediasının "Fransanın casusu" adlandırdığı Jirayr Safilyan Rusiya əleyhinə sərt ritorikası ilə seçilir:** "İrəvanda Rusiya əleyhinə keçirilən etiraz aksiyalarının təşkilatçılarından biri də Livan ermənisi Jirar Safilyan və onunla birlikdə "Milli-demokratik qütb" hərəkatında təmsil olunan siyasi qüvvələrdir. "Sasna tsrer"lə bağlı diqqət çəkən məqamlardan biri terror təşkilatının üzvlərinin bir qisminin ikinci Qarabağ müharibəsində ön cəbhəyə getməkdən imtina etmələri, bir hissəsinin isə ümumiyyətlə, Qarabağa gəlməmələridir. "Sasna tsrer"in üzvləri bunu onların Qarabağa getmələrinin qadağan edilməsi ilə əlaqələndirirlər. Amma Nikol Paşinyanın Qərbyönümlü millətçi təşkilatları, o cümlədən "Sasna tsrer"i himayə etməsi ilə bağlı faktlar sübuta yetirir ki, baş nazir, sadəcə onları qorumaq istəyib. O zaman ortalığa təbii bir sual çıxır: Nə üçün? Ola bilsin ki, Rusiya və Türkiyə əleyhinə kampaniyanın aparılması, ehtiyac duyulduqda Moskvanın iştirakı ilə danışıqların pozulması, süni gərginliyin yaradılması üçün. Bunun əksi də ola bilər. Yəni "Sasna tsrer"çilər Nikol Paşinyan üçün uyğun olan bütün senarilərdə yer ala bilərlər. Çünki ipləri Nikolun əlindədir".

**Elçin Mirzəbəyli əlavə edib ki, terror təşkilatının üzvü Norayr Mirzoyanın Daşaltıda həyata keçirməyə cəhd göstərdiyi terror aksiyası da Azərbaycan hərbçilərinə qarşı idi. Buraya Rusiya sülhməramlılarının "yapışdırılması"nın, ümumiyyətlə yeri yoxdur:** "Terrora cəhdlə bağlı videogörüntülərdə hər şey aydın görünür. İçərisində Mirzoyanın olduğu yük maşını dayanan kimi Rusiya sülhməramlıları sürətlə ərazidən uzaqlaşırlar. Azərbaycan hərbçiləri isə yalnız qumbara atıldıqdan sonra baş verənlərin fərqinə varırlar. Deməli, sülhməramlılar Mirzoyanın terrora cəhd edəcəyini dərhal anlayıblar. Mümkündür ki, Mirzoyanın hərəkətləri Rusiya sülhməramlılarının dayandığı nöqtədən daha tez sezildiyi üçün, sülhə təhdid yaradan addımların qarşısını almağa borclu olanlar, terrorçunun zərərsizləşdirilməsinə cəhd göstərməyiblər, sadəcə, dabanlarına tüpürüb qaçıblar. Bunun xüsusi təlimat əsasında baş verdiyini fikirləşmirəm. Elə bacardıqları budur. Baş verənlərdən çıxarılması mümkün olan nəticə isə ondan ibarətdir ki, Rusiya sülhməramlıları dislokasiya olunduqları ərazilərdə təhlükəsizliyi təmin etmək iqtidarında deyillər. Zənnimcə, belə bir təəssüratın formalaşması, Moskvanın marağında olmamalıdır. Son terror aksiyasında Rusiya ciddi uğursuzluğa düçar oldu və bunu kompensasiya etmək Moskva üçün çox çətin olacaq".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi**

# Dünya bu dəfə qalib xalqı tanıdı

## Diaspor təşkilatlarımız Zəfər ilində fəallıqlarını daha da artırıblar

Məlahət Rzayeva

**Azərbaycan mustəqilliyini bərpa etdikdən sonra dövlət siyasətinin prioritetlərindən biri diaspor quruculuğunun formalaşdırılması oldu. Əlbəttə ki, bu məsələdə ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi və xalqına əbədi bağlılığı dayanırdı. H.Əliyev çıxışlarında qeyd edirdi ki, Azərbaycanın haqq səsinin dünyaya çatdırılması xarici ölkələrdə diaspor təşkilatlarının güclənməsinə bağlıdır. Ümummilli liderin siyasətini layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də xarici ölkələrdə yaşayan soydaşlarımızın təşkilatlanmasına xüsusi önəm verdi.**

Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətində əsaslı islahatlar aparılması da bu siyasətin əhəmiyyətli hissəsidir. Son illərdə, xüsusən də Azərbaycan Silahlı Qüvvələrinin işğal altındakı ərazilərimizi düşməndən azad etməsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi xarici ölkələrdə yaşayan soydaşlarımızı daha da fəallaşdırdı. Bu fəallıq özünü Diasporla İş üzrə Dövlət Komitəsinin işində də göstərir. 8 Noyabr - Zəfər Günü münasibətilə dünyanın dörd bir yanında "Azərbaycan!" sədaları ucaldı. Müxtəlif tədbirlər, mərasimlər təşkil edildi. Onlardan biri ABŞ-ın İllinoys ştatının Skokie şəhərində Azərbaycan icmasının üzvləri ilə birgə keçirilib. Amerika Orta Qərb ştatları üzrə Azərbaycan Mərkəzinin rəhbəri Fərid və Mehriban Məmmədovların təşkil etdiyi görüş Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, daha sonra Qarabağ müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Görüşdə çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Vaqif Seyidbəyov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış şanlı qələbənin birinci ildönümü münasibətilə soydaşlarımızı təbrik edib, diaspor nümayəndələrini Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması işində bundan sonra da fəal olmağa çağırıb. Görüşdə Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətinə həsr edilmiş videoçarx, eləcə də 44 günlük müharibəni və Ermənistanın 30 illik işğal dövründə Qarabağda törətdiyi vandalizmi əks etdirən fotosərgi nümayiş olunub. Bundan bir neçə gün öncə isə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov ABŞ-da fəaliyyət göstərən Azərbaycan icmasının və Amerika Azərbaycanlıları Koordinasiya Şurasının üzvləri ilə görüşmüşdü. Nyu-York ştatında baş tutan görüşdə ABŞ-ın müxtəlif ştat və şəhərlərində fəaliyyət göstərən diaspor fəalları iştirak ediblər. Tədbirdə çıxış edən F.Muradov 8 noyabr - Zəfər Günü münasibətilə bütün azərbaycanlıları təbrik edib. Vətən müharibəsi dönəmində Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırmaq naminə nümayiş etdirdikləri birlik, həmrəylik fəaliyyətlərinə görə diaspor aktivlərinə minnətdarlığını bildirib. Qeyd olunub ki, 27 ölkəni əhatə edən 11 Koordinasiya Şurası yaradılıb, xaricdə yaşayan azərbaycanlıların şəbəkələşməsi və vahid platformalarda birləşməsi üçün mühüm addımlar atılıb. Amerika Azərbaycanlılarının Koordinasiya Şurasının fəaliyyətindən danışan komitə sədri bildirib ki, şura Amerikadakı soydaşlarımızın və diaspor təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi işində uğurlu yol qət edib. ABŞ-ın Nyu-York şəhərindəki Karnegi konsert zalında isə 8 Noyabr - Zəfər Günü münasibətilə bayram konserti keçirilib. Konsert Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Florida Azərbaycan Mədəniyyət Assosiasiyasının rəhbəri Töhfə Eminovanın və Florida Texnologiyalar Universitetinin professoru Pərvin Muradova-Dilbazinin təşkilatçılığı ilə baş tutub. Zəfər günü ilə bağlı Parisdə, Praqada, Qazaxıstanın Türkistan şəhərində bayram tədbirləri, konsertlər keçirilib, sərgilər təşkil olunub.



**Millət vəkili Cavid Osmanov "Şərq"ə açıqlamasında Böyük Qələbəmizin, Zəfər bayramının xaricdə yaşayan soydaşlarımız və diaspor təşkilatlarımız üçün sanki ikinci nəfəs olduğunu dedi:**

- Dünya azərbaycanlıları Azərbaycanın parlaq qələbəsini, zəfərimizin birinci ilini böyük sevinc və qürur hissilə qeyd edirlər. Cənab Prezident və birinci xanım Zəfər bayramını Şuşada qeyd etdilər, cənab Prezident hərbçilərlə görüşdü, Şuşada böyük atəşfəşanlıq oldu. Paytaxtda, ölkəmizin hər bir bölgəsində də Zəfər Günü coşqu ilə qeyd edildi. Eləcə də xarici ölkələrdə. Azərbaycan Prezidentinə dünya dövlət başçılarından təbrik məktubları gəldi. O cümlədən də Milli Məclisə, Mili Məclisin parlamentlərarası dostluq qrupları üzvlərindən. Bütün bunlar əlbəttə, Azərbaycanın artan nüfuzunun göstəricisidir. Həmçinin xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız da əvvəlki illərə nisbətən Zəfər ilində fəallıqlarını daha da artırdılar. Diaspor təşkilatlarımız, xarici ölkələrdə yaşayan soydaşlarımızın müqəddəs vəzifəsi dünənədək Azərbaycanın məruz qaldığı işğal faktını dünya ictimaiyyətinə çatdırmaq idisə, bundan sonra Azərbaycanın işğal altındakı ərazilərini azad etmək kimi, beynəlxalq hüquqla təsbit edilmiş haqqına sahib çıxdığını, ərazi bütövlüyünü bərpa etdiyini çatdırmaqdır. Zəfər Gününün dünya ölkələrində geniş şəkildə qeyd edilməsi də bu işin bir parçasıdır. Əgər diaspor təşkilatlarımız, fəal soydaşlarımız Zəfər Günü ilə bağlı tədbirlər keçirib, konsertlər, sərgilər təşkil edirsə, bu, Azərbaycanın haqq işinin dünyaya bildirilməsi, tanıdılması baxımından çox vacibdir. Biz sübut etdik ki, qalib xalqıq. Zəfər tarizimizin ilk ili necə coşqu ilə qeyd edilibsə, inanıram ki, növbəti illərdə də eyni əzmlə qeyd ediləcək və bütün dünya Azərbaycan xalqını qalib xalq, öz Vətənini qoruya bilən və onun azadlığı üçün canından keçməyə hazır xalq kimi tanıyacaq.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Zəngəzur dəhlizi regionu birləşdirəcək

## "Növbəti illərdə türk dünyasında iqtisadi əlaqələr daha da dərinləşəcək"

**"Strateji əməkdaşlıq xəttini son illər daha da gücləndirən Türkdilli dövlətlər iqtisadi münasibətlərin dərinləşməsi üçün yeni imkanları müəyyənləşdirirlər". Bunu "Şərq"ə açıqlamasında millət vəkili Vüqar Bayramov deyib.**

Deputat vurğulayıb ki, Azərbaycan və Mərkəzi Asiyada yerləşən Türkdilli dövlətlər MDB çərçivəsində qarşılıqlı ticari rejimi artıq formalaşdırıblar: "Türkiyə ilə Azərbaycan arasında imzalanan preferensial ticarət sazişi bu ilin martında qüvvəyə minib. Türkiyə Özbəkistan ilə oxşar sazişi imzalamaq mərhələsindədir. Bu isə ondan xəbər verir ki, türk dünyasında növbəti illərdə iqtisadi əlaqələr daha da dərinləşəcək. Ötən Zirvə görüşündə qədim Azərbaycan torpağı Zəngəzurun indi türk dünyasının birləşməsi rolunu oynayacağı xüsusi müzakirə olunmuşdu. Azərbaycanın Vətən müharibəsindəki Zəfərindən sonra regiondakı düzən də dəyişib. Artıq reallığa çevrilməkdə olan Zəngəzur dəhlizi 1.1 trilyon dollardan çox ümumi daxili məhsulu olan türkdilli ölkələri iqtisadi baxımdan birləşdirməklə yanaşı, regionun starteji əhəmiyyətini daha da artıracaq. Türkiyə 761.4 milyard dollar, Qazaxıstan 181.7 milyard dollar, Özbəkistan 57.9 miyard dollar, Azərbaycan 48 milyard dollar, Türkmənistan 48 milyard dollar və Qırğızıstan 8.5 milyard dollar nominal ÜDM-yə malikdirlər. Bu isə ondan xəbər verir ki, Zəngəzur dəhlizi kifayət qədər böyük iqtisadi potensiala və təbii resurslara malik olan regionu birləşdirəcək".

İsmayıl

# Regionun gələcəyi "3+3" formatından asılıdır

## Artıq İranın da siyasətində müəyyən yumşalmalar müşahidə olunur

**"Regionda vacib hadisələr baş verir". Bunu Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu noyabrın 15-də Tehranda iranlı həmkarı Hüseyn Əmirabdullahianla birgə keçirdiyi mətbuat konfransında deyib. "Regional məsələlərdə dialoqun davam etdirilməsi daha əhəmiyyətlidir. Cənubi Qafqazın sabitliyi, xüsusilə 3+3 formatı ilə bağlı İran tərəfi ilə müzakirələr aparırıq. Həmçinin İraqın, Əfqanıstanın sabitliyi üçün İran və Türkiyənin mühüm addımlar ata biləcəyini düşünürük", - o bildirib.**

*Məsələylə bağlı siyasi analitik Rusif Məmmədsoy "Şərq"ə açıqlamasında vurğulayıb ki, Mövlud Çavuşoğlunu Hüseyn Əmirabdullahian İrana dəvət edib. Analitik qeyd edib ki, əsas olaraq burda ikili əlaqələr müzakirə predmeti olub:* "Ümumiyyətlə, İranın artıq siyasətində müəyyən yumşalmalar müşahidə olunur. Daha doğrusu, onu biz buna məcbur eləmişik. Çünki bildiyiniz kimi, bundan əvvəl İran tərəfi Azərbaycana qarşı müəyyən nəbz yoxlaması keçirdi. Ancaq heç bir nəticə əldə edə bilmədi. Bundan əlavə onun Azərbaycandakı



müxtəlif radikal şəbəkələri deşifrə edildi və deaktiv hala gətirildi. Bu əslində İrana çox ciddi mesaj idi. İran artıq bölgədəki reallıqlarla barışmaq məcburiyyətindədir, bunun başqa çarəsi yoxdur. Türkiyənin də əsas istəklərindən biri də odur ki, İranı "Altılıq platforması"nda görmək istəyir. Bəli, regionun gələcəyi "3+3" formatında görülür. Burda da təkcə Türkiyənin və Azərbaycanın maraqları deyil, digər dövlətlərin də maraqları var".

Aynurə Pənahqızı

# Mirzoyanın Azərbaycanda mühakiməsi daha məntiqli olardı

## Sədrəddin Soltan: "Ancaq Rusiya özünü vəziyyətin sahibi kimi apararaq razılaşmaları pozdu"

**"Rusiya Qafqazda yazılı qanunlara əməl etmir. Onlar müvəqqəti və ya uzunmüddətli nəzarət altında saxladıqları əraziləri yazılmamış qanunlarla idarə etməyə çalışırlar. Bu zaman beynəlxalq hüquq normaları və ərazisində olduqları dövlətin qanunlarına əhəmiyyət belə vermirlər".**



*Bu fikirləri "Şərq"ə açıqlamasında politoloq Sədrəddin Soltan deyib. Politoloq qeyd edib ki, rus sülhməramlılarının erməni terrorçusunu buraxması ciddi qanun pozuntusudur:* "Dəməli, noyabrın 13-də Azərbaycanın Şuşa rayonunun Daşaltı kəndində azərbaycanlı və rus hərbçiləri olduğu posta 1975-ci il təvəllüdlü Norayr Mirzoyanın qumbara atması nəticəsində 3 azərbaycanlı əsgər yaralanıb. Rusiyalı sülhməramlılar terrorçunu tutsalar da, sonradan sərbəst buraxıblar, yaxud ermənilərə təhvil veriblər. Rusiyanın belə davranışı heç şübhəsiz ciddi qanun pozuntusu sayılır. Çünki hadisə Şuşada baş verdiyindən və xəsarət alan da azərbaycanlı hərbçiləri olduğundan Norayr Mirzoyanın da Azərbaycanda mühakiməsi daha məntiqli olardı. Ancaq Rusiya özünü vəziyyətin sahibi kimi apararaq razılaşmaları pozdu. Əslində, bu hadisə 2015-ci il yanvarın 12-də Rusiya hərbçisinin Ermənistanda törətdiyi bir cinayəti yada salır. Həmin gün Rusiyanın Gümrüdəki 102 saylı hərbi bazasının hərbçisi Valeri Permyakov Avetisyan soyadlı erməni ailəsinin biri 2 yaşlı olmaqla, 6 üzvünü avtomat silahla güllələyərək qətlə yetirmiş, 6 aylıq körpəni isə yaralamışdı. Bir müddət sonra 6 aylıq körpə də öldü. Onda Rusiya İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkin məsələ ilə bağlı İrəvana səfər edərək Ermənistanın ovaxtkı Prezidenti Serj Sarkisyanla görüşdən sonra demişdi ki, Valeri Permyakovun məhkəməsi Ermənistanda açıq şəkildə keçiriləcək: "Bu, tərəflərin ədalətli məhkəmə keçirmək cəhdinə nümunə olacaq". Onda Rusiya bu hadisənin siyasiləşməsindən narahat idi. Bu baxımdan rəsmi İrəvan 2 yaşlı və 6 aylıq iki uşağın qanı üzərindən alver etdilər".

**S.Soltan diqqətə çatdırıb ki, bu, Rusiya hərbçilərinin Ermənistanda ilk cinayəti deyildi:** "1999-cu ildə Ermənistandakı Rusiya hərbçiləri Denis Popov və Aleksandr Kamenev şəhər bazarı yaxınlığında odlu silahdan atəş açıblar. Həmin hadisə nəticəsində 2 nəfər ölüb, 10 nəfər isə yaralanıb. Gümrü məhkəməsi A.Kamenevi 15, Denis Popovu isə 14 il müddətinə azadlıqdan məhrum edib. Onda D.Popov cəzasının 2 ilini, A.Kamenev isə 11 ilini Ermənistanda çəkdikdən sonra Rusiyaya qayıdıblar. Popovun cəzasının qalan müddətini harada çəkdiyi məlum deyil. Ermənistan KİV-nin məlumatına görə, o, Rusiyada yüksək vəzifəlilərdən birinin qohumudur. V.Permyakov da 2016-cı il avqustun 23-də Ermənistanın Şirak vilayətinin məhkəməsi tərəfindən ömürlük həbs cəzasına məhkum olunmuşdu. Rəsmi İrəvan rusiyalı qatil-hərbçinin cəzasını Ermənistanda çəkməsinə çalışsa da, heç bir nəticə əldə olunmadı. İki ölə arasında imzalanan Moskva konvensiyasına əsasən, Permyakov Rusiyaya təhvil verilmişdi. Ancaq indiyədək Permyakovun cəzasını çəkdiyi yer məlum deyil. Ermənistana cinayət törətdikdən sonra Rusiyaya təhvil verilən o biri hərbçilər kimi Permyakovla bağlı hadisə də belə ört-basdır edildi. Rusiyanın Ermənistana qarşı bu kimi saymazyana addımları qarşı tərəfin ictimaiyyətində narazılığa səbəb olur. Ötən ay İrəvanda Rusiyaya qarşı məşəlli etiraz yürüşü keçirilib. Rusiya belə davranışı ilə müstəmləkə siyasətini yada salır. Bu, Böyük Britaniyanın ötən əsrlərdə Hindistanda yürütdüyü siyasəti xatırladır. Son olaraq, keçmiş SSRİ dövründə Moskvanın Azərbaycan ərazisində komitə yaratmaqla erməni separatizminə və onların silahlanmasına yardım etməsi yaddan çıxmayıb. 1989-cu il dekabrın 6-da keçmiş Azərbaycan SSR Ali Soveti tərəfindən Dağlıq Qarabağ üzrə Respublika Təşkilat Komitəsi yaradılmış, ona Mərkəzi Komitənin ikinci katibi Viktor Polyaniçko sədr təyin edilmişdi. 1989-cu il yanvarın 12-də isə keçmiş SSRİ Ali Sovetinin Rəyasət Heyəti "DQMV-də və onun ətrafında millətlərarası münasibətlərin gərginliyinin davam etməsi" ilə əlaqədar olaraq və baş verənlərin qarşısını almaq adı altında bölgədə vəziyyəti sabitləşdirmək üçün Dağlıq Qarabağın Azərbaycan SSR-nin tərkibində muxtar vilayət statusunu saxladı. Eyni zamanda vilayətdə xüsusi idarə formasının tətbiq edilməsi haqqında fərman imzalandı. Həmin fərmanla DQMV-də birbaşa Moskvaya, keçmiş SSRİ-nin ali dövlət hakimiyyəti və idarə orqanlarına tabe olan Xüsusi İdarə Komitəsi yaradıldı. Komitəyə Arkadi Volski sədrlik edirdi. Bu komitələr Azərbaycan torpaqlarının işğalına, ermənilərin silahlanmasına, Xocalı və Azərbaycanın başqa rayonlarında soyqırımın törədilməsinə yardım etdi. Sülhməramlı adı altında Qarabağa yerləşdirilən Rusiyanın 366-cı motoatıcı alayının Xocalı soyqırımında iştirakı da danılmazdır. Azərbaycan ərazisində müvəqqəti olaraq yerləşdirilən Rusiya sülhməramlılarının tutduqdan sonra terrorçu Mirzoyanı ermənilərə təhvil verməsi onların mandatlarına uyğun davranmadıqları ehtmalını artırır. Rusiyalı hərbçilərin Ermənistanda "qəhrəman" elan olunan bu terrorçunu ermənilərə təhvil verməsi Volski və Polyaniçko komitələrinin fəaliyyətini, 366-cı alayın əməllərini, lap elə uşaq qatili Permyakovun Rusiyaya aparılmasını xatırladır".

Aynurə Pənahqızı

# Koronavirusa yoluxub sağalan insanların saçları tökülür

## Çünki xəstəlik zamanı saç dərisinin epitel hüceyrələri zədələnir



**Həyatımızın son aylarında ən çox danışılan mövzu yeni tipli koronavirus - SARS-CoV-2 Covid-19 virusu və onun törətdiyi xəstəliklərdir.**

Pandemiyanın tüğyan etdiyi ilk dönəmlərdə öyrəndik ki, "Covid-19" məruz qaldığı mutasiyalar nəticəsində bildiyimiz başqa viruslardan əlamətlərinə, bu əlamətlərin ağırlıq dərəcəsinə görə fərqlənir. Həmçinin məlum oldu ki, bu virusun törətdiyi xəstəlik ağır tənəffüs çatışmazlığına səbəb olan pnevmoniya əmələ gətirə bilər ki, bu da ciddi ağırlaşmalar törədə bilər və bu səbəbdən də "Covid-19"-un ölüm faizi digər respirator viruslardan yaranan xəstəliklərlə müqayisədə xeyli yüksəkdir. Aylar keçdikcə həkimlər xəstələrin müşahidəsi zamanı yeni əlamətlər qeyd etməyə başladılar - virus nəticəsində qan damarlarında tromboemboliyanın əmələ gəlməsi, sinir sistemində pozulmalar, dəridə yaranan səpkilər və s. Son vaxtlarda "Covid-19"-a yoluxub sağalmış xəstələrin bir çoxu reaktiv (şiddətli) saç tökülməsi şikayəti ilə müraciət edirlər.

Bildiyimiz kimi, "Covid-19" virusuna yoluxmuş xəstələrdə ağırlaşmaların riski pasiyentin yaşı və yanaşı xroniki xəstəliklərin olub-olmadığı ilə əlaqəlidir. Amma xəstəlikdən yaranan və adətən sağalandan bir neçə həftə (6-10 həftə) sonra başlayan şiddətli saç tökülməsinə həm cavan, həm də nisbətən yaşlı xəstələrdə rast gəlinir.

**Həkim-infeksionist Mərdan Əliyev "Şərq"ə açıqlamasında bildirib ki, koronavirus müxtəlif orqanlarda problemlər yaradır. Həkim qeyd edib ki, koronavirus əsasən bağırsaqda ishal, əzələlərdə isə ağrılar müşahidə edilir:** "Koronavirusdan sonra insanlarda həqiqətən də saç tökülməsi baş verə bilər. Çünki saç dərisinin epitel hüceyrələri zədələnə bilir. Ancaq bunun tam doğru olması hələ ki sübuta yetirilməyib. Bunun üçün hələ geniş araşdırılma aparılmayıb və dəqiqləşdirilməyib. Amma ehtimal var ki, bu virusdan sonra insanlarda saç tökülməsi yaşansın".

**Aynurə Pənahqızı**

# Çətin zəmanədir

## Heç bir ailə gəlirindən məhrum olmaq istəməz



**Bu mövzu cəmiyyətin ən çox ehtiyac duyduğu və qabardılması istənilən mövzulardandır. Valideynlər, xüsusilə də yeni övladı dünyaya gələn ailələr bu barədə çox narahatlıq duyurlar. Çünki yeni uşaq doğmuş anaya və ailənin digər üzvlərinə yardım etmək üçün heç olmasa ilk aylarda evdə digər valideynin olması vacibdir. Əksər xarici ölkələrdə bununla bağlı konkret qayda var.**

Məsələn, Norveçdə atalıq məzuniyyəti məcburidir və 14 həftəlikdir. Təzə ata-ana olanlar maaşlarının 80 faizini alaraq ümumən 59 həftə doğum icazəsindən istifadə edə bilirlər. Əgər ata bu icazədən istifadə etməsə, hökumət uşaq yardımını azaldır. İsveçdə də kişilər məcburi olaraq 2 ay atalıq məzuniyyətinə çıxır. Bu hüquqdan istifadə etməyən atalar uşağa görə onlara verilən müavinətdən azad edilirlər. Almaniyada da valideynlərə verilən ödənişli doğum icazəsi 14 həftədir. Ödənişsiz icazə müddəti isə həm ana, həm də ata üçün uşaq 3 yaşına çatana qədər uzadıla bilir. Ötən gün Milli Məclisin İctimai birliklər və dini qurumlar, Elm və təhsil, Ailə, qadın və uşaq məsələləri, Səhiyyə və mədəniyyət komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri Hicran Hüseynova qanunvericiliyə atalıq məzuniyyətinin ödənişli olması ilə bağlı dəyişiklik edilməsini təklif edib.

***Ona görə qadınlar kimi, kişilərin də atalıq məzuniyyəti ödənişli olmalıdır***

**Məsələ ilə bağlı sosioloq Lalə Mehralı "Şərq"ə açıqlamasında bildirib ki, kişilərin atalıq məzuniyyəti olduqca vacib və incə məsələdir. Sosioloq qeyd edib ki, hazırda qanunvericiliyə görə, atalıq məzuniyyəti yoxdur, ancaq xəstə ailə üzvünə baxmaq məqsədindən kişilər məzuniyyət tələb edə bilər:** "Hazırda qeyd etdiyim vəziyyətə görə, 14 gün müddətində atalıq məzuniyyətə çıxma var, ancaq ödənişsiz məzuniyyətdir. Ailə fərdinin çoxalması, ailənin əlavə gəlirlərə ehtiyacı olması, xərclərin artması səbəbindən kişilər ödənişsiz məzuniyyətə çıxmaq istəməyəcəklər. Çünki ortada daha yaxşı qazanmaq, daha yaxşı ailəni təmin etmək məsələsi var. Bu səbəbdən də kişilər bu haqlarından istifadə etməyəcəklər. Biz istərdik ki, qanunların qadına tanıdığı güzəşti heç olmasa yarısı olmasa belə, müəyyən bir miqdarı kişilərə də şamil olunsun. Hesab edirəm ki, atalıq məzuniyyəti də ödənişli olaraq həyata keçirilməlidir".

**Aynurə Pənahqızı**

# Zəhərlənmə faktlarını gizlədirlər

## Ən yaxşısı, göbələklərdən uzaq durmaq lazımdır



**Qax rayonunun Əmircan kənd sakini, 1991-ci il təvəllüdlü N.Məmmədov göbələkdən zəhərlənib. Xəstəxanada ona ilkin tibbi yardım göstərilib və evə buraxılıb.**

Ötən gün isə Kliniki Tibbi Mərkəz Toksikologiya şöbəsinə zəhərlənmə faktı ilə bağlı iki nəfər daxil olub. Bu barədə Kliniki Tibbi Mərkəzdən məlumat verilib. Bildirilib ki, pomidor turşusundan zəhərlənən Füzuli rayonundan olan ata və qızı - 1986-cı il təvəllüdlü Ricay Mirzəyev və 2011-ci il təvəllüdlü Aytac Mirzəyeva 12 noyabr tarixində xəstəxanaya yerləşdirilib. Daha sonra hər iki şəxsin vəziyyətləri ağırlaşdığı üçün Bakıya gətiriliblər. Həkimlərin səylərinə baxmayaraq, R.Mirzəyev gecə saatlarında dünyasını dəyişib. Aytac Mirzəyevanın isə vəziyyəti ağırdır. Beləcə qida zəhərlənməsi mövzusu yenidən gündəmə gəldi. Zəhərlənməyə səbəb olan, bir çox hallarda bizi ölümlə qarşı-qarşıya qoyan göbələk və şoraba kimi qidalardan necə uzaq dura bilərik? **Mövzu ilə bağlı "Şərq"ə danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov artıq 24 ildir AİB-nin bu məsələləri təhlil etdiyini bildirib:** "Bu illər ərzində şahidi olmamışam ki, Azərbaycan həkimi bir şəxsin sənaye üsulu ilə hazırlanmış hansısa məhsuldan zəhərləndiyini desin. Çünki maraqları var. Hər bir sənaye üsulu ilə hazırlanmış məhsullara dövlət orqanları sertifikat verir". Eyyub Hüseynov evdə şoraba hazırlamağı qəbul etmir: "Təəssüf ki, bu hal uzun müddətdir davam edir. Düşünürəm ki, buna son qoyulmalıdır. İnsanlar şoraba istəyirlərsə, sənaye üsulu ilə hazırlanmış olanlara üstünlük verməlidirlər. Qida mədəniyyətində şoraba arzuolunmaz bir qidadır".

**Göbələkdən zəhərlənmə hallarına gəlincə isə AİB sədri bu qidanın riskli məhsullar sırasında olduğunu bir daha diqqətə çatdırıb:** "Mənşəyindən asılı olaraq olduqca tez zəhərlənməyə səbəb olan bir qidadır. Bacardıqca bu məhsuldan uzaq durmaq lazımdır. Hər halda zəhərlənmə halları gizlədilməsə onlara qarşı daha yaxşı mübarizə apara bilərik".

**Gunes Merd**

# Azərbaycanda ötən il və bu il....

## Qızılca və məxmərəyə yoluxma halı qeydə alınmayıb



**Son bir ildə ölkəmizdə qızılcaya yoluxma halları qeydə alınmayıb. Dünyada isə 2020-ci ildə 22 milyondan çox körpə COVID-19-a yoluxmaq nəticəsində qızılcaya qarşı peyvənd olunmayıb.**

Bu da 2019-cu illə müqayisədə 3 milyon uşaq çoxdur.

**AZƏRTAC-a bildirir ki, Respublika Gigiyena Epidemiologiya Mərkəzinin baş direktor müavini Afaq Əliyeva bununla əlaqədar olaraq deyib:** "Avropa regionu üzrə 135 qızılca hadisəsi qeydə alınıb. Ötən il Ukrayna, Belçika, Türkiyə və digər ölkələrin hər birində təxminən 10-15 uşaq həmin xəstəliyə yoluxub. Son bir il ərzində 53 ölkənin daxil olduğu Avropa regionunda 83 məxmərəyə yoluxma halı qeydə alınıb".

Ölkəmizdə pandemiya başlayandan peyvəndlərin, o cümlədən qızılcaya qarşı peyvəndləmənin əhatə dairəsi azalıb. Son 20 ildə dünyada peyvənd vasitəsilə qızılcadan 30 milyondan çox ölüm halının qarşısı alınıb. Xəstəliyin ilkin əlamətləri yüksək hərarət, halsızlıq, öskürək, burun axıntısı və gözlərdə qızartıdır. Sonradan həmin əlamətlərə bədənin hər yerini əhatə edən qırmızı səpgilər də əlavə olunur.

"Ötən il və bu ilin ötən dövrü ərzində Azərbaycanda qızılca və məxmərək xəstəliyi qeydə alınmayıb. Bu, aparılan peyvəndləmə tədbirlərinin nəticəsində mümkün olub. Doğrudur, ötən il pandemiya şəraiti ilə əlaqədar bütün xəstəliklər azalıb və peyvənd aparılması bir qədər zəifləmişdi. Əlbəttə, bu işdə həm peyvəndləmənin, həm də epidemioloji nəzarət həmin xəstəliklərin azalmasında mühüm rol oynayır",- deyə direktor müavini bildirib.

*Qızılca ən yoluxucu viral xəstəlikdir. Bu, uşaq xəstəliyi hesab olunsa da, böyüklərin yoluxma riski yüksəkdir.*




### Qarabağda çəkilən kadrlar "Bakcell"in yeni reklamına aiddir

**Bir qədər əvvəl sosial şəbəkələrdə və xəbər portallarında Şuşanın Cıdır Düzündə və Füzuli Beynəlxalq Hava Limanında aparılan çəkilişlərdən maraqlı fotolar yayılmışdı.**

Məlum olub ki, həmin çəkilişlər Bakcell şirkətinin yeni reklam çarxına aiddir. Şirkətdən bildirilib ki, reklam çarxı Bakcell şəbəkəsinin üstünlüyünə həsr edilib.

Azərbaycanın ən sürətli mobil şəbəkəsi artıq işğaldan azad olunmuş torpaqlarımızda da xidmət göstərir. Bakcell Qarabağda şəbəkənin əhatə dairəsinin genişləndirilməsi və yüksək keyfiyyətli xidmətlərin təmin edilməsinə yönəlmiş genişmiqyaslı işlərini davam etdirəcək.

*Qeyd edək ki, 2021-ci ildə Bakcell şəbəkəsi növbəti dəfə Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu gün Bakcell şəbəkəsi 8700-dən çox baza stansiya sayəsində Azərbaycan əhalisinin 99.9%-ni, ölkə ərazisinin isə 92.4%-ni əhatə edir.*

### Elan

Airon List Construction MMC (vöen 150 457 4561) məxsus ĞLL 311001-dən 311100 nömrəyədək kassa mədaxil order sənədləri itdiyi üçün etibarsız sayılır.

Qazax rayon Yuxarı Salahlı kənd sakini Kərimov Mustafa Xıdır oğlunun adına verilmiş 917 nömrəli Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
-**MÜHASİBAT** (2 AY)
-**Mobil telefonların təmiri** (3 ay)
-**KOMPYUTER** (1-3 AY)
-**KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
-**KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
-**Dizayn** (3-6ay)
-**Masaj** (3 ay)
-**Biçmə - Tikiş** (3 ay)
-**Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Güneş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2331



## Bu il 2104 əkiz, 60 üçəm doğulub

**Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-sentyabr ayları ərzində 82 928 doğulan körpə qeydə alınıb.**

Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Bildirilib ki, əhalinin hər 1000 nəfərinə bu göstərici 11,1 təşkil edib.

Doğulan uşaqlar arasında oğlanların xüsusi çəkisi 53,5 faiz, qızların xüsusi çəkisi isə 46,5 faiz olub.

Körpələrdən 2104-ü əkiz, 60-ı üçəm, 4-ü isə dördəm doğulanlardır.

## Yaponiya bu dərmanla koviddən ölümü sıfıra endirib

### Onu terapiyaya daxil edəndən sonra ölümlər qəfildən azalmağa başlayıb




**Yapon həkimləri korona xəstələrini ifermektin adlı dərmanla müalicə edərək, ölüm faizini sıfıra endirib. Medicina.az xəbər verir ki, yaponlar bu dərmanı sentyabrdan tətbiq etməyə başlayıb. Onu terapiyaya daxil edəndən sonra ölümlər qəfildən azalmağa başlayıb.**

Lakin bununla yanaşı ölkədə digər dərmanlar da kovid müalicəsinə daxildir.

Ona görə tək ivermektin təsir etməsi barədə rəy vermək çətindir.

Lakin faktlar göstərir ki, Yaponiyada məhz sentyabr ayından son 11 aya nisbətdə minimum yoluxma və ölüm sayı qeydə alınıb.

Hazırda əhalisi kifayət qədər sıx olan Yaponiyada sutkada cəmi 1-4 nəfər koviddən ölür.

Qeyd edək ki, bu dərman ABŞ-da da məşhurdur, lakin həkimlər onun toksiki olduğunu bildirir.

Elmi tədqiqatlar sübut edib ki, ivermektetin kovidin hüceyrə nüvəsinə keçməsinin qarşısını qəti alır.



# Atatürkün ən sevdiyi yeməklər...

## Evinin mətbəxində quru lobya heç əskik olmayıb

**Məlahət Rzayeva**

**Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk süfrə mədəniyyətinə böyük önəm verib. Xüsusən də sadəliyi sevərmiş. Atatürkün çox sevdiyi yeməklər ətsiz quru lobya və plov olub.**

Şirniyyatlardan isə penderli şirin bişmələri sevərmiş. Atatürk nahar zamanı söhbət edər, məsləkdaşları ilə, hökumət üzvləri ilə də bir çox hallarda süfrə başında müzakirələr aparardı. "Şərq" Türkiyə mediasına istinadən bu dəfə Mustafa Kamal Paşanın süfrə mədəniyyətinə işıq tutur. Atatürkün həyat tərzini yaxından izləmək imkanı olanlar xatirələrində bildirir ki, o, süfrə başında ədəb-ərkana nə qədər çox önəm versə də, sevdiyi yeməklərin hazırlanmasını tələb etməzdi. Lakin sevdiyi yeməyin təqdim olunmasından xoşlanardı. Atatürk söhbətləri zamanı çox yeməyin ziyanlı tərəflərindən danışar, süfrədən doymadan qalxmağın xeyirli olduğunu deyərmiş. Özü də bu qızıl qaydalara əməl edirmiş. Yaxşı çevrəsi Atatürkün çox az yediyini və süfrədən də adətən tez qalxdığını söyləyib. Mustafa Kamal Paşa günə sadə qəhvə ilə başlayarmış. Bir dilim çörək, soyuq ayran, ya da bir kasa qatıq yeyərmiş. Bəzi günlərdə yalnız çay və qəhvə ilə kifayətlənirmiş. Səhər qəzetlərini vərəqləyərkən südlü qəhvə içərmiş. Atatürk qəhvəni də çox sevirdi və gün ərzində 10-15 fincan qəhvə içərmiş. Ən sevdiyi yemək öz diliylə deyilirsə, "yağlı fasulye" - ətsiz, yağlı lobya idi. Evinin mətbəxində quru lobya heç əskik olmazmış. Lobyanın yanında isə plov olardı. Çörəyə üstünlük verməzmiş. Plov olmayanda 2 dilim çörək ona bəs edirdi. Yeməkarası atışdırmalıqlarda isə qovun, qovrulmuş duzlu ləbləbi və fıstıq sevirdi. Maraqlıdır ki, gecələr çalışan zaman acdıqda yumurta yeyirmiş. Gül mürəbbəsi də xoşlayırmış. Anası Zübeydə xanımın vaxtilə hazırladığı Selanik üsulu ispanaqlı börək də Cümhuriyyət qurucusunun uşaqlıq çağlarından sevdiyi ləzzətlər sırasında idi. Börəy yeyərkən də ayran içərmiş. Ümumiyyətlə, nahar zamanı ayrana üstünük verirmiş. Atatürkün şam yeməyi uzun sürərmiş, buna səbəb isə məhz şam yeməyi zamanı süfrə başında hökumət üzvləri ilə dövlət işlərinin müzakirə olunmasıydı. Şam yeməyində daha çox bamiyə və qarnıyarıq (badımcan dolması) süfrəyə verilərdi. Mustafa Kamal Paşa həyatı boyunca heç vaxt ənginar yeməyib, bu tərəvəzin dadını bilməyib. Amma dadına baxmağı arzulayırmış. Hətta belə demək mümkünsə, ənginarın dadına baxmaq Atatürkün son arzularından biri olub. Yavəri ilə arasındakı bir söhbət zamanı bu məlum olub. Atatürk yavərinə "Oğul, mən heç vaxt ənginar yemədim, bilirsənmi?" , söyləyib. Yavəri isə bunu eşidib məxsusi Atatürk üçün ənginardan yemək sifariş edib. Və "Türkiyənin ən məşhur aşpazı sizin üçün hazırladı. Kahramanmaraşdan qatar yola çıxıb. Gəlir, Paşam!" deyib. Lakin Qatar Ankaraya yetişənədək Atatürk gözlərini əbədi yumub.





## Kosmosdan görüntüləndi

### Buzlağın necə sürətlə əridiyi heyrət doğurur



**Avropa Birliyi "Kopernik" Dünya Müşahidə Proqramı çərçivəsində Antarktikada Pine İsland Buzlağının 6 il ərzində necə əridiyini əks etdirən video yayılıb. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, video kosmosdan çəkilib. Buzlağın necə sürətlə əridiyi heyrət doğurur. Buzlağın ərimə prosesi 2015-ci ildən müşahidə altındaymış. Kosmosdan çəkilən görüntülərdə buzlağın 6 il ərzində sürətlə əridiyi görünür. Buzlağın dənizə doğru hərəkəti 1990-2009-cu illər arasında, hər il 2,5 kilometrdən 4 kilometrə qədər sürətlənib. Ərimə sürəti daha sonra 10 il ərzində yüksək olaraq qalıb.**

**Məlahət**

## Konsertində 9 nəfər öldü

### Reper klubda əyləndi



**Reper Dreyk 9 nəfərin öldüyü, 300 nəfərin isə yaralandığı sonuncu konsertindən sonra əyləncə məkanlarının birində görüntülənib.**

**Axşam.az xəbər verir ki, 35 yaşlı müğənninin gecə klubunda 1 milyon dollar xərclədiyi iddia edilib. Onun görüntülərdə pulları klubda olan xanımlara payladığı əks olunub. Həmin video klub və DJ Akademiks tərəfindən paylaşılsa da, sonradan silinib. Lakin "The Sun" nəşri paylaşımında Dreykin hesabını işarələyərək onun həqiqətən də orada əyləndiyini vurğulayıblar.**

***Qeyd edək ki, Dreykin məşhur reper Travis Skottla bölüşdüyü konsert faciə ilə nəticələnib. Hadisə zamanı yaralanan Kristian Paredes və Manel Sousa müğənniləri məhkəməyə verərək onlardan ayrı-ayrılıqda 1 milyon dollar təzminat tələb edirdilər.***



## Alimlər araşdırma aparıb

### Onlayn tanış olan cütlüklərin boşanma ehtimalı 6 dəfə çoxdur

**Yeni texnologiyalar və mobil proqramlar insanların həyatında getdikcə daha çox yer tutur. Bu kontekstdə ekspertlər son illərdə Tinder və Bumble kimi tanışlıq proqramları vasitəsilə həyat yoldaşını seçənlərin sayının artdığını bildiriblər. Bununla belə yeni bir araşdırma internetdə tanış olan cütlüklərin dostları və ailəsi vasitəsilə tanış olanlara nisbətən boşanma ehtimalının altı dəfə çox olduğunu ortaya qoydu.**

"Şərq" opedio.com-a istinadən məlumat verir ki, İngiltərədə aparılan yeni araşdırmada internetdə tanış olan cütlüklərin boşanma nisbəti evliliyin ilk illərində universitetdə və ya dostları və ailəsi vasitəsilə tanış olanlara nisbətən altı dəfə çox olub. Yaşı 30 və daha çox olan 2000 evli yetkin arasında aparılan sorğu 2000-ci ildən bəri internetdə tanış olan cütlüklərin evliliklərinin ilk üç ilində 12 faiz, sosial əlaqələr vasitəsilə tanış olanların isə 2 faiz boşanma riskinin olduğunu göstərib. Araşdırmanın sifarişçisi olan Evlilik Fondu, tapıntıların evliliyin ilk illərində cütlükləri dəstəkləməkdə sosial əlaqələrin mühüm rol oynadığını bildirib. Bununla belə araşdırmaya görə, boşanma nisbətlərindəki fərq evliliyin 10 ilinə qədər davam edir. Həyat yoldaşları ilə internetdə tanış olanların 17 faizi 7 ildən sonra boşandığı halda, qarşılıqlı əlaqə yolu ilə tanış olan cütlüklərin 10 faizi boşanıb.

Bununla belə 10 illik evlilikdə iş yerində tanış olanların ən yüksək boşanma nisbəti 24 faiz, internetdə tanış olanların yüzdə 20, bar və ya restoranda tanış olanların yüzdə 19 faiz olduğu bəlli olub. Digər tərəfdən araşdırmada "eHarmony", "Bumble", "Grindr" və ya "Tinder" kimi çox istifadə edilən platformalar vasitəsilə onlayn tanış olan cütlüklər arasında fərq qoyulmayıb. **Evlilik Fondunun araşdırma direktoru Harri Benson, tapıntıların "narahatedici" olduğunu söyləyib:** "Araşdırmamızın nəticələri göstərir ki, evliliyin ilk illərində bu şəkildə görüşən cütlüklər dostları vasitəsilə tanış olanlarla müqayisədə, qarşılaşdıqları bütün çətinliklərin öhdəsindən gəlmək üçün ətraflarında kifayət qədər sosial kapitala və ya yaxın dəstək şəbəkələrinə malik olmaya bilərlər. Zaman keçdikcə bu bərabərsizlik aradan qalxır, amma sual budur ki, bu niyə mövcuddur?". Sorğunu aparan bazar araşdırmaları üzrə məsləhətçi Savanta Comres deyib ki, internetdə tanış olan cütlüklər artıq iki yad adam kimi evləniblər, çünki qarşılıqlı əlaqənin olmaması onların bir-biri haqqında məlumat toplamaqda çətinlik çəkməsi ilə nəticələnir. Digər tərəfdən araşdırmada onlayn görüşənlərin həyat yoldaşının ailəsi və dostları ilə "illər boyu köklü əlaqələrdən çox, sıfırdan" sosial bağlar qurması lazım olduğu da ifadə edilib.

"Bizim araşdırmalarımız heç bir şəkildə onlayn tanışlığın həyati rolunu zəiflətmir və ya azaltmır" -, deyən Benson əlavə edib ki, biz nisbi yad insanla tanış olmağın böyük risklərini və çətinliklərini vurğulayırıq".

**Gunes Merd**

## Yeni pandemiya qapıda!

### Çində COVİD-dən də təhlükəli 18 virus aşkarlanıb




**Koronavirusun mənbəyi hesab edilən Çinin Vuhan şəhərindəki canlı heyvan bazarında mütəxəssislər 71 virus aşkarlayıb.**

Onlardan 18-i "yüksək risk" kateqoriyasına aid edilir. Böyük Britaniya mediası bu xəbəri "naməlum xəstəlik - yeni pandemiya dalğası" başlığı ilə yayıb. "Şərq" "Milliyyet.com"a istinadən bildirir ki, yeni pandemiya dalğasının yayılacağı ehtimalı dünyanı ayağa qaldırıb. 2019-dan bu yana dünyaya səs salan və indiyədək dünyada 250 milyon insanın yoluxduğu, 5 milyondan artıq insanın vəfat etdiyi koronavirusun yayılma mənbəyi olaraq bilinən Vuhan şəhərinin canlı heyvan bazarından qorxulu xəbərlər gəlməkdədir. Koronavirus peyvəndlər sayəsində nisbətən nəzarət altına alınıb. Lakin yeni virus dalğası xəbərləri dünyanı lərzəyə gətirir. İngilis tədqiqatçı Edvard Holmes, Vuhan şəhərində dəniz məhsulları satılan bazarda 5 il əvvəl olub və o zaman çinlilər ona heyvanlardan insana yoluxan bir virus barədə danışıblar. İndi isə alimlər heyvan bazarından başqa, yeni bir virusun növbəti pandemiya dalğası yarada biləcəyini söyləyir. Heyvan bazarındakı canlılar üzərində aparılan tədqiqatların nəticəsi noyabrın 12-si açıqlanıb. Məlum olub ki, bazarda açıq satışdakı məməli heyvanlarda 71 virus aşkarlanıb, bu viruslardan 18-i çox təhlükəlidir. Elm adamları virusun misk pişiyi tərəfindən yayıla biləcəyinə diqqət çəkir. Misk pişiyində rast gəlinən mikroblar təhlükəli virusun yayılmasına səbəb ola bilər. Sidney Universitetinin bioloq-alimi Edvard Holmes canlı heyvan bazarının virusun mənbəyi ola biləcəyini belə izah edib: İnsanlar heyvanlara, heyvanlar insanlara virus "daşıyır". Bu, ikitərəfli virus trafikidir. Daha təhlükəlisi budur ki, misk pişiyindən virus insanlara asanlıqla keçə bilər və bu da yeni, daha təhlükəli pandemiyanın yayılmasına səbəb olar. Yeni pandemiya dünyada 75 milyon insanı əhatə edə bilər. COVİD-19-un mənbəyi hələ də dəqiq təsbit edilməyibsə, ikinci virus dalğası bəşəriyyət üçün dağıdıcı olacaq. Çin hökuməti gözlənilən pandemiyaya indidən hazırlaşır. Ölkə boyunca karantin tədbirlərinin həddindən artıq sərtləşdirilməsi də qarşıdakı təhlükədən xəbər verir. Əyləncə mərkəzləri artıq bağlanır, parklarda əylənənlərdən yenidən analiz alınır, hətta nəticələri neqativ çıxanlar da 2 gün evə qapadılır. Və təkrar analiz verməleri tələb olunur. Daxili səyahətlərə qadağa qoyulur. Şərqi Çinin Yiangxi əyalətində bir nəfərdə yoluxma aşkar edildikdən sonra magistral yollarda yalnız qırmızı işıqlar yandırıldı. Çinin Xəstəlikləri Nəzarət və Önləmə Mərkəzinin sabiq epidemioloqu Zeng Guang isə bildirib ki, hökumətin sərt tədbirlərə əl atması Çinin istehsal etdiyi peyvəndlərin zəif olmasıdır. Epidemioloq daha güclü peyvəndə ehtiyac olduğunu deyib.

**Məlahət Rzayeva**